Günəş Şərqdən doğur!

№ 199 (5720), 2022-ci il

Qiymәti 40 qәpik

ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

1 noyabr 2022-ci il (çərşənbə axşamı)

## Sabirabadda 17 yaşlı qız ərə verilib

Polis əməkdaşları yeniyetmənin valideynləri ilə izahedici söhbətlər aparıb




"Sabirabad rayonunda 17 yaşlı qızın ərə verilməsi faktı ilə bağlı Rayon Polis Şöbəsinin Qaragüney Polis Bölməsinin əməkdaşları tərəfindən bütün tədbirlər icra olunub".

(Səh.9)

## "Çində yoluxma artımının bizə dəxli yoxdur"

Mərdan Əliyev: "Hazırkı durumu nəzərə alaraq təhlükə sovuşub deyə bilərik"



**Çində "Covid-19"-la bağlı vəziyyət yenidən kəskinləşib.** Ölkənin üçüncü ən böyük şəhəri olan Quanqcouda "Covid-19" tədbirləri genişləndirilib. Şəhərdə 45 yüksək riskli və 79 orta riskli ərazidə tam və ya qismən qapanma tətbiq edilib.

(Səh.9)



## Bölmələrimizin itki verərək geri çəkilməsi yalandır

Ermənistanın baş qərargahı əməliyyat şəraitindən xəbərsizdir

Ermənistan silahlı qüvvələrinin bölmələri ilə guya İstisu yaşayış məntəqəsi istiqamətində mövqe atışmaları nəticəsində Azərbaycan Ordusunun bölmələrinin itki verərək geri çəkilməsi və mövqe dəyişikliyi barədə Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisinə istinadən yayılan məlumat yalandır.

(Səh.3)

## TDT Zəngəzur dəhlizinin açılmasını yaxından izləyir

Türkiyə və Azərbaycan bu məsələdə çox effektli əməkdaşlıq həyata keçirir



**"Son illərdə əldə etdiyimiz qazanclarımız sayəsində türk dünyası çərçivəsində birgə addımlar atdıq. Türk birliyinin əsası qoyulmuşdur".**

Bu barədə İstanbulda keçirilən konfransda Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev bildirib.

(Səh.3)

## İş günü ilə istirahət gününün yerləri dəyişdirilib

Altı günlük məktəblərdə noyabrın 7-si dərs olacaq

**Elm və Təhsil Nazirliyi noyabrın 5-9-da beş və altı günlük təhsil müəssisələrində iş günlərinin necə tənzimlənəcəyi ilə bağlı məlumat verib.**

Nazirlikdən bazar ertəsi verilən məlumata görə, Nazirlər Kabinetinin qərarı ilə noyabrın 7-si iş günü ilə noyabrın 5-i istirahət gününün yerləri dəyişdirilib.

(Səh.13)

# Soçidə üçtərəfli görüş baş tutdu

## Putin görüşü faydalı adlandırıb, "ancaq hər şeyi razılaşdıra bilmədik" deyib



**Dünən Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub.**

(Səh.4)

## Qız uşaqları təhlükədə...

Ətraf cinayətə meyilli insanlarla doludur




**Paytaxtda manyaklar peyda olub və ağlasığmaz, iyrənc hadisələr törədirlər.** Hadisələrdən biri məktəbli, digəri isə tələbə qızlarla bağlıdır. Azərbaycan Dillər Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universiteti yaxınlığında naməlum şəxs dərman almaq adı ilə gənc qızlara yaxınlaşaraq, onların xeyirxahlığından sui-istifadə edir.

(səh.9)



## Qobustanda iki gün ard-arda zəlzələ baş verib

Qurban Yetirmişli: "Yaxın zamanalar üçün Azərbaycanda dağıdıcı, katastrofik zəlzələ ehtimalı yoxdur"

**Qobustanda iki gün ard-arda zəlzələ baş verib. Onlardan biri bəzi həssas insalar arasında hiss olunan dərəcədə olub.**

Bu, seysmik aktivliyin artmasının göstəricisidirmi? Ümumiyyətlə, Qobustan Bakıya yaxın rayonlardan biridir. Paytaxtda çoxmərtəbəli binaların sayının günü-gündən artdığını əsas götürərək, əhalinin təşvişə düşməsinə səbəb varmı? Cavabını mütəxəssisdən soruşduq.

(Səh.9)



## Xankəndidə bir də mitinq olsa, dərhal dayandırılmalıdır

Tural Abbaslı: "Ermənistandan adam daşınaraq Xankəndidə təşkil olunmuş mitinq şousu birbaşa Azərbaycanın suverenliyinə təhdiddir"

(səh.6)



## Sülh qaçılmazdır

Putin Soçidə baş nazirə mesaj verir ki, müharibənin dayandırılmasına görə götürdüyü öhdəlikləri - 10 noyabr razılaşmasını icra etmək lazımdır

(səh.3)

# Soçidə üçtərəfli görüş baş tutdu

**Putin görüşü faydalı adlandırıb, "ancaq hər şeyi razılaşdıra bilmədik" deyib**

**Dünən Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub.**

Görüş "Rus" sanatoriyasında V.Putinin təşəbbüsü ilə keçirilib.

**Görüşdə çıxış edən Rusiya Prezidenti Vladimir Putin deyib:**

- Hörmətli həmkarlar, bu gün biz üç sessiyadan ibarət danışıqlar apardıq. Əvvəlcə, Ermənistan nümayəndə heyəti ilə, sonra isə Ermənistanın baş naziri ilə təkbətək danışdıq. Daha sonra Azərbaycan nümayəndə heyəti ilə və Azərbaycan Prezidenti ilə təkbətək danışdıq və sonra iki saat, bəlkə də bir qədər artıq müddətdə üçlükdə söhbət etdik. Bizim ümumi fikrimizə görə bu görüş çox faydalı oldu. Məncə bu görüş bəzi prinsipial məsələlər barədə gələcəkdə mümkün razılaşmalar üçün çox yaxşı ab-hava yaratdı.

Bu gün biz birgə Bəyanatı razılaşdırdıq. Açıq deməliyəm, hər şeyi razılaşdırmaq mümkün olmadı. Əvvəlcədən mütəxəssislər səviyyəsində işlənmiş mətndən bəzi hissələri çıxarmalı olduq. Bununla belə, mən ümumi rəylə razıyam ki, görüş faydalı oldu və bu, bütövlükdə vəziyyətin nizamlanması istiqamətində sonrakı addımlar üçün şərait yaradır. Özü də mən bütövlükdə deyəndə həm yaxın keçmişə aid cari hadisələri, həm də iki il bundan əvvəl baş vermiş hadisələri nəzərdə tuturam. Hər halda, o vaxt biz prinsipial məsələlər barədə razılığa gəlməyə nail olduq. Bugünkü diskussiya onu göstərir ki, biz bütün ölkələrimizin gələcəyi barədə də razılığa gələ bilərik. Mən bizim bütün ölkələr dedikdə həm Rusiyanı, həm Azərbaycanı, həm Ermənistanı, həm də bütün region ölkələrini nəzərdə tuturam. Ona görə ki, bu ərazidə yaşayan bütün xalqlar münasibətlərin normallaşmasında maraqlıdırlar. Rusiya öz tərəfindən, qəti və hərtərəfli nizamlamaya nail olmaq üçün nə mümkündürsə edəcək.

Çox sağ olun. Mən öz həmkarlarıma - həm Ermənistanın baş nazirinə, həm də Azərbaycanın Prezidentinə təşəkkür etmək istəyirəm ki, siz Rusiyaya, Soçiyə gəlməyə və bugünkü diskussiyanı aparmağa razılaşdınız. Razılaşdığımız kimi biz əlaqə saxlayacağıq, bu dialoqu və uzun müddət davam edən bu münaqişəyə nöqtə qoymaq üçün zəruri həllərin axtarışını davam etdirəcəyik.


ЗАЯВЛЕНИЕ
Президента Азербайджанской Республики,
Премьер-министра Республики Армения
и Президента Российской Федерации
(г.Сочи, 31 октября 2022 года)

Мы, Президент Азербайджанской Республики И.Г.Алиев, Премьер-министр Республики Армения Н.В.Пашинян и Президент Российской Федерации В.В.Путин, встретились 31 октября 2022 года в г.Сочи и обсудили ход реализации трехсторонних заявлений от 9 ноября 2020 года, 11 января и 26 ноября 2021 года.

Подтвердили приверженность неукоснительному соблюдению всех указанных договоренностей в интересах комплексной нормализации азербайджано-армянских отношений, обеспечения мира, стабильности, безопасности и устойчивого экономического развития Южного Кавказа. Согласились приложить дополнительные усилия, направленные на безотлагательное решение остающихся задач, включая блок гуманитарных вопросов.

Отметив ключевой вклад Российского миротворческого контингента в обеспечение безопасности в зоне его развертывания, акцентировали востребованность его усилий по стабилизации обстановки в регионе.

Договорились воздерживаться от применения силы или угрозы ее применения, обсуждать и решать все проблемные вопросы исключительно на основе взаимного признания суверенитета, территориальной целостности и нерушимости границ в соответствии с Уставом ООН и Алма-Атинской декларацией 1991 г.

Подчеркнули важность активной подготовки к заключению мирного договора между Азербайджанской Республикой и Республикой Армения в целях достижения устойчивого и долгосрочного мира в регионе. На основе имеющихся наработок условлено продолжить поиск взаимоприемлемых развязок. Российская Федерация будет оказывать этому всяческое содействие.

Акцентировали важность формирования позитивной атмосферы между Азербайджанской Республикой и Республикой Армения для продолжения диалога между представителями общественности, экспертных сообществ и религиозных лидеров при российском содействии, а также запуска трехсторонних



## Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli görüşünə dair birgə bəyanat dərc olunub

**Azərbaycan, Rusiya və Ermənistan liderləri İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyanın üçtərəfli görüşünün yekunları üzrə birgə bəyanatın mətni dərc olunub.**

*Bəyanatda deyilir:*

"Biz Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının Baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin 2022-ci il oktyabrın 31-də Soçidə görüşdük və 9 noyabr 2020, 11 yanvar və 26 noyabr 2021-ci il üzrə üçtərəfli bəyanatların icrasını müzakirə etdik.

Azərbaycan-Ermənistan münasibətlərinin hərtərəfli normallaşması, Cənubi Qafqazda sülhün, sabitliyin, təhlükəsizliyin və davamlı iqtisadi inkişafın təmin edilməsi naminə bütün bu sazişlərə ciddi əməl etməyə bir daha sadiqlik nümayiş etdirdik. Biz humanitar məsələlər də daxil olmaqla, qalan vəzifələrin təcili həllinə yönəlmiş əlavə səylər göstərməyə razılaşdıq".

Bəyanatda Rusiya sülhməramlı kontingentinin yerləşdiyi zonada təhlükəsizliyin təmin edilməsinə əsas töhfəsi qeyd edilir, onun regionda vəziyyətin sabitləşdirilməsi istiqamətində vacibliyi vurğulanır.

"Biz güc tətbiq etməkdən və ya onun tətbiqi ilə hədələməkdən çəkinməyə, bütün problemli məsələləri BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq yalnız suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında müzakirə edərək həllinə razılaşdıq", - sənəddə bildirilir.

Bununla yanaşı, bəyanatda regionda davamlı və uzunmüddətli sülhə nail olmaq üçün Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülh müqaviləsinin bağlanmasına fəal hazırlığın vacibliyi deyilir.

Tərəflər arasında mövcud imkanlar əsasında qarşılıqlı məqbul həll yollarının axtarışının davam etdirilməsi razılaşdırılıb. Rusiya Federasiyası buna hər cür kömək göstərəcək.

Liderlər Rusiyanın yardımı ilə ictimaiyyət nümayəndələri, ekspertlər və dini liderlər arasında dialoqun davam etdirilməsi üçün Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında müsbət atmosferin yaradılmasının, habelə iki ölkə xalqları arasında etimadı gücləndirmək üçün üçtərəfli parlamentlərarası təmasların başlanmasının vacibliyini qeyd ediblər.

Həmçinin Azərbaycan və Ermənistan liderləri Rusiyanın bu ölkələr arasında münasibətlərin normallaşmasına, Cənub Qafqazda sabitliyin və rifahın təmin edilməsinə bundan sonra da hər cür töhfə verməyə hazır olduğunu alqışlayıblar.

## Şuşada "Ali təhsil haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb



**Bu gün Şuşada Milli Məclisin Elm və təhsil və Mədəniyyət komitələrinin birgə iclası keçirilir.**

İclasın gündəliyinə iki məsələ daxil edilib.

İclasın gündəliyinə daxil olan məsələlər aşağıdakılardır:

- "Ali təhsil haqqında" Azərbaycan Respublikası qanununun layihəsinin müzakirəsi.
- İşğaldan azad olunmuş ərazilərdə tarixi-mədəni abidələrin bərpası sahəsində tədbirlər.

*Qeyd edək ki, "Ali təhsil haqqında" qanun layihəsi ilk dəfədir ki, parlamentin komitələrində müzakirəyə çıxarılır. Bundan əvvəl qanun layihəsi İşçi qrupda müzakirə olunub.*

## İrana yeni sanksiyalar tətbiq olunsun!

### Almaniya kansleri Aİ-yə çağırış edib

**"Avropa İttifaqının İrana qarşı sanksiyaları vacibdir". "Report" xəbər verir ki, bunu Almaniya kansleri Olaf Şolts tviterdə yazıb.**

O, İrandakı etirazlarda dinc nümayiş keçirən insanların öldürülməsindən narahatlığını bildirib: "Biz təhlükəsizlik qüvvələrinin güc tətbiqini pisləyirik".

O.Şolts İran xalqının yanında olduqlarını söyləyib.

*Xatırladaq ki, İran əxlaq polisi sentyabr ayında 22 yaşlı Məhsa Əminiyə hicab qaydalarına riayət etmədiyinə görə təzyiqlər göstərib və onu qətlə yetirib. Bundan sonra ölkədə kütləvi etirazlar başlayıb. Rəsmi Tehran etirazları amansızlıqla yatırıb, eləcə də internetin bağlanması da daxil olmaqla digər məhdudlaşdırıcı tədbirlərə əl atıb. Yerli hüquq müdafiəçiləri ən azı 185 nəfərin öldürüldüyünü bildirirlər.*

# TDT Zəngəzur dəhlizinin açılmasını yaxından izləyir

### Türkiyə və Azərbaycan bu məsələdə çox effektli əməkdaşlıq həyata keçirir



**"Son illərdə əldə etdiyimiz qazanclarımız sayəsində türk dünyası çərçivəsində birgə addımlar atdıq. Türk birliyinin əsası qoyulmuşdur". Bu barədə İstanbulda keçirilən konfransda Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev bildirib.**

O qeyd edib ki, TDT siyasət, iqtisadiyyat, mədəniyyət, ticarət, gömrük kimi hər bir sahəni əhatə edən beynəlxalq təşkilatdır: "Əlaqələrimiz Səmərqənddəki liderlər zirvəsi ilə yeni bir boy qazanacaq. Bunun arxasında xalqlarımızın iradəsi və liderlərimizin qətiyyəti dayanır. Qeyd edim ki, cənab Ərdoğanın çox önəmli liderlik rolu var. O, son 20 ildə sadəcə Türkiyəni dünyada söz sahibi edən lider yox, həm də türk dünyasını birləşdirməyi bacaran bir liderdir". Amreyev əlavə edib ki, sağlıq mövzusu da başda gələn mövzulardandır. Onun sözlərinə görə, pandemiya dövründə TDT çox uğurlu addımlar atıb.

Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibinin müavini Ömər Kocaman bildirib ki, TDT Zəngəzur dəhlizinin açılmasına dair prosesi yaxından izləyir. O qeyd edib ki, Türkiyə və Azərbaycan bu məsələdə çox effektli əməkdaşlıq həyata keçirir: "Biz bu prosesin bütün türk dünyası üçün müsbət amil olacağına inanırıq. Bundan əlavə, Türkiyə və türk dünyası arasında təmin ediləcək kəsintisiz əlaqənin bölgə və dünyada sülh üçün önəmli nəticələri olacaq. Digər tərəfdən isə ticarətin dərinləşməsi və inkişafın genişlənməsi də təmin olunacaq".

**"Türkiyə taxıl daşınması məsələsində effektiv diplomatiya yürüdür"**

Ömər Kocaman bildirib ki, TDT-yə üzv ölkələr, xüsusən də Türkiyə və onun lideri Rəcəb Tayyib Ərdoğan taxıl daşınması məsələsində effektiv diplomatiya yürüdür. Bu da dünyada və bölgədə sülh üçün çox önəmlidir: "Biz bu prosesin müsbət nəticələnəcəyinə inanırıq. TDT olaraq bu və bənzər prosesləri yaxından izləyirik. Yaxın zamanlarda türk dünyasında baş verəcək proseslərə uyğun siyasəti müəyyən etmək üçün mövcud mexanizmlərimiz çərçivəsində çalışırıq". Kocaman əlavə edib ki, noyabrın 11-də Səmərqənddə baş tutacaq liderlər zirvəsi və bir gün öncə keçiriləcək TDT XİN rəhbərlərinin iclası çərçivəsində bütün cari regional məsələlər müzakirə olunaraq, qərarlar veriləcək.

**"Türk dövlətləri öz dərmanlarını istehsal edə bilməlidir"**

Türkiyənin Səhiyyə naziri Fahrettin Koca bildirib ki, böyük türk dünyasının bir hissəsi olan Azərbaycan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Qazaxıstan və Şimali Kipr Türk Respublikası ilə daha da güclüyük. O qeyd edib ki, pandemiya dövründə səhiyyə sahəsi ilə bərabər ölkələr arasında dostluq da sınaqdan çıxdı: "Qardaş ölkələrimiz bu mübarizədə bizimlə birgə ən öndə oldular. Həm pandemiya, həm də Rusiya-Ukrayna müharibəsi səhiyyə sistemimizin güclü olmasının vacibliyini göstərdi. Ortaq hərəkət edərək, öz dərman və ləvazimatlarımızı istehsal edə biləcək böyük bir ailə olmalıyıq. 20 ildə türk səhiyyə sisteminə edilən yatırımlar göz qabağındadır, şəhər xəstəxanalarımızda göstərdiyimiz xidmətlər dünya tərəfindən qibtə ilə izlənməkdədir".

**İsmayıl**

# Qarabağ münaqişəsi artıq tarixdə qalıb

## Azərbaycanın irəli sürdüyü 5 əsas prinsip dəyişməzdir

### Prezident İlham Əliyev mesajı ilə Paşinyanın mövqeyinin perspektiv üçün məzmunsuz olduğunu göstərdi



**Dünən Soçidə Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya rəhbəri Vladimir Putin arasında ikitərəfli görüş keçirilib. Prezident İlham Əliyev 2 il əvvəl Qarabağ münaqişəsinin nizamlanmasında oynadığı rola görə Vladimir Putinə bir daha təşəkkür edib.**

Dövlət başçısı birmənalı vurğulayıb ki, Qarabağ münaqişəsi 2 il əvvəl həll edilib. Prezident qeyd edib ki, Azərbaycan bu yaxınlarda 5 əsas prinsip irəli sürüb: "Onların əsasında Azərbaycanla Ermənistan arasında münasibətlər normallaşdırılmalıdır. Bütün bunlar beynəlxalq hüququn əsas prinsipləridir. Hesab edirəm ki, bunun əsasında normallaşmaya nail olmaq olar. Qarabağ münaqişəsi artıq tarixdə qalıb, iki il əvvəl həll olunub. Bu kontekstdə praktiki olaraq müzakirə olunacaq heç nə yoxdur və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması çox ciddi addımlar tələb olunduğu formatdır". Prezident vurğulayıb ki, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması çox ciddi addımlar tələb edir. Rusiya Prezidenti Vladimir Putin də öz növbəsində deyib ki, görüşün məqsədi 2020 və 2021-ci illərdə əldə etdiyimiz bütün razılaşmaların icrasını təmin etməkdir: "Siz dəfələrlə qeyd etmisiniz ki, Rusiya münaqişənin nizamlanmasında vacib rol oynayıb. Bu qiymətə görə mən sizə minnətdaram. Hazırda sülhməramlı kontingentimiz öz missiyasını yerinə yetirir. Bu gün əlbəttə ki, mövcud vəziyyətlə bağlı danışmaq lazım olacaq, həll olunmayan məsələlərin həll yollarını axtarmaq gərək olacaq. Bununla əlaqədar, bizim tərəfimizdən yaradılan üçtərəfli işçi qrupu qeyd etmək istərdim. Onlar bir çox məsələlərin həllində çox irəli gediblər. Görünür burda da, əlavə impuls vermək lazım gələcək. Bilirəm ki, Azərbaycan tərəfi bu əsasda aktiv işləyir. Müzakirə edəcəyim məsələlərin dairəsi olduqca böyükdür. Sizi görməyə şadam". Putin baş nazirin müavinlərinin rəhbərlik etdiyi Rusiya, Ermənistan və Azərbaycanın üçtərəfli işçi qrupunun işinə əlavə təkan verilməsini zəruri hesab edib. O, Azərbaycan tərəfinin bu istiqamətdə kifayət qədər fəal işlədiyini söyləyib: "İqtisadi xarakterli mühüm komponenti də qeyd edərdim. Biz üçtərəfli işçi qrupu yaratmışıq, ona baş nazirin müavinləri rəhbərlik edir. Onlar iki il əvvəl danışdığımız məsələlərin həlli baxımından xeyli irəliləyiblər".

Ekspertlər vurğulayıblar ki, dövlət başçısı İlham Əliyev Qarabağ məsələsinin masada müzakirəsinə icazə verməyəcəyini elan etdi. Eyni zamanda, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı danışıqların Rusiyanın hansısa "15 bəndlik təklifi" yox, Bakının formalaşdırdığı, İrəvanın və Moskvanın da qəbul etdiyi 5 prinsip çərçivəsində mümkün olacağının mesajını verdi.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, Prezident İlham Əliyev həmkarı Putinlə görüşdə "Qarabağ münaqişəsi tarixdə qaldı" deməklə Nikol Paşinyanın mövqeyinin perspektiv üçün məzmunsuz olduğunu göstərdi:** "Bununla belə, etiraf etmək lazımdır ki, Rusiyanın Qarabağla bağlı mövqeyindəki bəzi nüanslar Azərbaycanı qane etmir. Ölkə rəhbəri İlham Əliyevin Putinlə uzlaşma şansı isə Paşinyandan qat-qat çoxdur. Bura Türkiyə faktorunu da əlavə etsək, Ermənistan üçün labirintin gələcəyini təsəvvür etmək elə də çətin deyil. Hesab edirəm ki, Qarabağda antiterror əməliyyatlarının və sərhəddəki hərbi əməliyyatların anonsu verilir".

**İsmayıl**

# Bölmələrimizin itki verərək geri çəkilməsi yalandır

## Ermənistanın baş qərargahı əməliyyat şəraitindən xəbərsizdir



**Ermənistan silahlı qüvvələrinin bölmələri ilə guya İstisu yaşayış məntəqəsi istiqamətində mövqe atışmaları nəticəsində Azərbaycan Ordusunun bölmələrinin itki verərək geri çəkilməsi və mövqe dəyişikliyi barədə Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisinə istinadən yayılan məlumat yalandır.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib.

"Oktyabrın 24-dən bu günədək əməliyyat şəraitində heç bir dəyişiklik olmadığı halda qarşı tərəfin silahlı qüvvələrinin baş qərargah rəisinin belə bir açıqlama verməsi onun əməliyyat şəraitindən xəbərsiz olduğunu nümayiş etdirir. Bildiririk ki, əməliyyat şəraitində heç bir dəyişiklik olmayıb və bölmələrimiz əvvəlki mövqelərində döyüş növbətçiliyini davam etdirir", - qeyd olunub.

# Oleq Tinkov Rusiya vətəndaşlığından imtina edib



**Rusiyalı məşhur milyarder Oleq Tinkov Rusiya Federasiyası vətəndaşlığından imtina edib.**

APA-nın Moskva bürosu xəbər verir ki, bu barədə Rusiya "Telegram" kanalları məlumat yayıb.

Bildirilib ki, Oleq Tinkov Rusiya vətəndaşlığından imtina qərarını açıqlayıb.

O, öz hərəkətini müharibə əleyhinə olmadığı ilə izah edib.

"Mən bu pasporta sahib olmaqdan utanıram",- deyə rusiyalı milyarder yazıb.




# Qarabağda hər yerdə yağmalanmış evlər var idi

## Türkiyə Səyyahlar Klubu ziyarətləri boyunca erməni vandallığının şahidi olublar

**Qarabağda hər yerdə yağmalanmış, dağıdılmış evlər var idi.**

Trend xəbər verir ki, bunu Türkiyə Səyyahlar Klubunun prezidenti Salman Arınc Qarabağ və Zəngəzura səfərlərinə həsr olunmuş bugünkü konfransında deyib.

O bildirib ki, ziyarətləri boyunca erməni vandallığının şahidi olublar: "Biz Respublika günümüzün 99-cu ildönümünü azad edilmiş Qarabağda qeyd etmək qərarı alaraq səfərdə iştirak etdik. Səfərimiz zamanı işğaldan azad edilən bütün əraziləri, bu gün isə Xudafərin körpüsünü ziyarət etdik. Hər yerdə dağıdılmış, yağmalanmış binalar var idi. 30 il bundan öncə bu torpaqlar işğal olunub. O dövrdə bu işğalın qarşısını almaq mümkün olmadı. Beləliklə, xarici dövlətlərdən dəstək alan ermənilər insafsızcasına qətliamlar gerçəkləşdirdilər".

Salman Arınc deyib ki, yol boyunca Azərbaycan bayraqları ilə yanaşı, Türkiyə bayraqlarının da dalğalandığını görüb: "Bu, dostluğumuzun, qardaşlığımızın göstəricisidir. Bu gün həmin ərazilərdə sürətli bərpa-quruculuq işləri aparılır. Əsas məsələlərdən biri də Zəngəzur dəhlizi boyunca dəmir yolu xəttinin çəkilməsidir. İnşallah, bunun da gerçəkləşməsinin şahidi olacağıq".

# Sülh qaçılmazdır

## Putin Soçidə baş nazirə mesaj verir ki, müharibənin dayandırılmasına görə götürdüyü öhdəlikləri - 10 noyabr razılaşmasını icra etmək lazımdır



**Rusiya Prezidenti Vladimir Putinlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında Rusiyanın Soçi şəhərində ikitərəfli görüş keçirilib. Görüş 1 saatdan çox davam edib. Rusiya rəhbəri deyib ki, Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ" problemini həll etmək üçün siyasi iradəsi var:**

"Münaqişə onilliklərdir ki, davam edir. Və biz buna birtəhər son qoymalıyıq. Bilirəm ki, bunun üçün sizin siyasi iradəniz var. Biz bunu hər cür dəstəkləyirik. Biz irəliləməyə imkan verəcək əsas məqamları tapmalıyıq". Rusiya prezidenti qeyd edib ki, Soçidəki danışıqlar mövcud vəziyyəti müzakirə etmək üçün növbəti fürsət olacaq. Onun fikrincə, indi ən başlıcası sülhə nail olmaq və iqtisadi inkişaf üçün şərait yaratmaqdır. Bu vəzifə həm də 2020-ci ilin noyabrında, hərbi əməliyyatları dayandırmaq lazım olan vaxt qarşıya qoyulub. Rusiya lideri görüşün yekunlarına əsasən irəliləyişin mümkün olacağına ümid etdiyini bildirib.

Ermənistan Baş naziri Nikol Paşinyan isə deyib ki, İrəvan regional kommunikasiya əlaqələrinin açılmasında maraqlıdır və hər an qərar qəbul etməyə hazırdır: "Ermənistan ərazisindəki kommunikasiyalar İrəvanın tam nəzarəti altında olmalıdır". Paşinyanın qısa çıxışını əvvəlcədən hazırlanmış vərəqdən oxuması diqqətdən qaçmayıb.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Paşinyan Rusiya rəhbərindən bir sıra xahişlər edib. Analitik vurğulayıb ki, baş nazir Azərbaycan Ordusunun Ermənistan "ərazisindən" çıxarılmasını tələb edib:** "Həmçinin, Paşinyan bildirib ki, Azərbaycan Ordusu Qarabağda rus sülhməramlılarının "məsuliyyət zonası"ndan çıxarılmalıdır. Eyni zamanda Ermənistan ərazisindən keçən kommunikasiya xətləri İrəvanın nəzarətində olmalıdır, yeni Zəngəzurdan dəhliz verməyəcəklərini söyləyib. Putin isə öz çıxışında 10 noyabr 2020-ci ildə müharibənin necə və hansı razılaşma ilə dayandırıldığını xatırladıb. Deyib ki, üç ölkənin rəhbərliyi o fikirlə razılaşıb ki, sülhü təmin etmək və inkişafa nail olmaq lazımdır: "Həmçinin, Ermənistan iqtisadiyyatının inkişafı üçün nəqliyyat infrastrukturunun blokadadan çıxarılması, yeni marşrutların yaradılması vacibdir. Biz bu məsələlərdən danışmalıyıq və ümid edirəm irəliləyiş olacaq". Putin bununla erməni baş nazirə mesaj verir ki, müharibənin dayandırılmasına görə götürdüyü öhdəlikləri - 10 noyabr razılaşmasını icra etmək lazımdır. Nikol "üzündən oxusa" da görünür, 10 noyabr razılaşmasını icra etməkdən imtina etməkdə israrlıdır. Paşinyanın mövqeyi vəziyyəti yenidən gərginləşdirə bilər".

**İsmayıl Qocayev**

# Rusiya hesab istəməkdə haqsızdır

## Moskvanın gedişi hüquqi yox, siyasidir



### "Taxıl sazişi"ndən imtina etmək üçün qərar 6 ay öncədən bəyan edilməlidir

**Ukraynanın taxıl dolu gəmiləri limanlarda qalıb. Taxıl sövdələşməsində iştirak edən 218 gəminin hərəkəti əngəllənib. Ukraynanın İnfrastruktur Nazirliyinin məlumatına görə, Rusiya Qara dəniz Donanmasına hücumu əsas gətirərək, birtərəfli qaydada taxıl sazişindən çıxıb.**

Rəsmi Moskvanın BMT-yə və Türkiyə hakimiyyətinə "taxıl təşəbbüsü"nün "Sevastopoldakı hücuma görə" müvəqqəti dayandırıldığı barədə məlumat verdiyi bildirilir. Türkiyənin Milli müdafiə naziri Hulusi Akar və digər rəsmilər problemin həlli və taxıl təşəbbüsünün fəaliyyətinin davam etdirilməsi üçün müvafiq tərəflərlə təmasdadırlar. Qeyd edək ki, indiyədək İstanbuldakı Birgə Koordinasiya Mərkəzinin fəaliyyəti sayəsində Ukrayna limanlarından ehtiyacı olan ölkələrə 9,3 milyon ton taxıl uğurla göndərilib.

Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya "Taxıl sazişi"ndən çıxdıqdan sonra Afrika ölkələrinə dəstəyini davam etdirəcək, lakin bunun dəqiq necə olacağı işlənib hazırlanmalıdır. Peskov onu da qeyd edib ki, Rusiyasız taxıl sövdələşməsi çətin ki, mümkün olsun: "O, daha riskli xarakter alır".

Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova deyib ki, taxıl razılaşması Britaniya mütəxəssislərinin rəhbərlik etdiyi Zelenski və onun terrorçuları tərəfindən pozulub. Zaxarova onu da qeyd edib ki, Rusiya ehtiyacı olan ölkələrə 500 min ton taxılı təmənnasız olaraq verməyə hazırdır. NATO-nun mətbuat katibi Oana Lunqesku Moskvaya çağırış edib. O, Rusiyanı anlaşmanı təcili bərpa etməyə çağırıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Rusiyanın "taxıl sazişi"ndən çıxmasına münasibət bildirib. Ərdoğan deyib ki, İstanbulda qurulan Koordinasiya Mərkəzi vasitəsilə Ukraynadan 9,3 milyon ton buğdanın dünya ölkələrinə göndərilməsi təmin edilib və qida böhranının qarşısı nisbətən alınıb: "Hər nə qədər Rusiya Ukrayna buğdasının ixracı üzrə göstərilən səylərlə bağlı tərəddüd etsə də, biz bəşəriyyətə xidmət üçün cəhdlərimizi qətiyyətlə davam etdirəcəyik".

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə deyib ki, Rusiyanın sazişdən birtərəfli qaydada çıxması beynəlxalq hüquqa görə mümkünsüzdür. Professorun sözlərinə görə, əgər bir dövlət hansısa beynəlxalq anlaşmaya imza atırsa, öhdəlik götürürsə, imtina qərarını 6 ay öncədən bəyan etməlidir:** "Rusiya narazılığını bəyan edərək, mart ayında sazişdən birtərəfli qaydada çıxa bilərdi. Aydındır ki, Moskvanın gedişi hüquqi yox, siyasidir. Putin gördü ki, Ərdoğanın sadəcə Cənubi Qafqazda deyil, həm də Orta Asiyada, bütöv türk dünyasında nüfuzu və təsir imkanları artmaqdadır. "Taxıl sazişi"nin imzalanmasına nail olmaqla Türkiyə qlobal oyunçu olduğunu da bir daha isbatladı. Türkiyə liderinin açıq-aşkar dünya liderinə, "G-20"nin favoritinə çevrilməsi Kreml rəhbərini ciddi narahat etməkdədir. Buna qısqanclıqla yanaşan Putin bir sıra bəhanələr uyduraraq Türkiyənin vasitəçiliyi ilə əldə edilmiş sazişdən imtina etdi".

C.Nuriyevə görə, Rusiya hesabat istəməkdə haqsızdır: "Sazişdə Ukraynanın taxılı kimə, hara satacağı ilə bağlı bənd, öhdəlik yoxdur. Kiyev öz taxılını istədiyi ölkəyə sata bilər. Yəni taxıl kasıb Afrika dövlətləri ilə yanaşı, Avropa ölkələrinə də daşına bilər. Nəzərə alaq ki, Ukrayna öz taxılını satır, ixrac edir. Burada söhbət humanitar yardımdan getmir ki, taxılın kasıb ölkələrə getməməsi hansısa problem yaratsın. Kremlin məsələyə yanaşması düzgün deyil, ittihamları əsassızdır. Məncə, Rusiyanın sazişdən çıxması ilə bağlı qərarın Soçi görüşü ilə də əlaqəsi var. Sülhün Moskva variantı rəsmi Bakının maraqlarına cavab vermir. Kreml öz gedişləri ilə Azərbaycanın ən böyük dəstəkçisinə - Türkiyə rəhbərliyinə də təzyiq göstərməyə çalışır. Məqsəd Ərdoğanı Ukrayna və Azərbaycan olmaqla iki seçim qarşısında qoymaqdır. Rusiya elə bir dövlətdir ki, istənilən an neqativ addım ata, bəşəriyyətə zərəri toxunacaq qərar verə bilir. Ona görə də Moskvanın pozucu addımları demək olar ki, artıq təəccüb doğurmur".

**İsmayıl Qocayev**



# MEDİA və Sahibkarlığın İnkişafı Fondu arasında görüş keçirilib

**Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov və Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyəti sədri vəzifəsini icra edən Osman Xaliyev arasında görüş keçirilib.**

Bu barədə "Şərq"ə MEDİA-dan məlumat verilib.

Bildirilib ki, görüş zamanı Əhməd İsmayılov media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində atılan addımlar, çap və onlayn mediaya dəstək layihələri barədə ətraflı məlumat verib.

O, media subyektlərinin biznes strukturu kimi formalaşmasının əhəmiyyətini vurğulayıb.

Daha sonra Osman Xaliyev Fondun fəaliyyəti, qeyri-neft sektoruna investisiya qoyuluşlarının və özəl sektorda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, güzəştli kreditlərin verilməsi ilə əlaqədar sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi istiqamətlərində görülən işlər barədə məlumat verib.

Görüşdə hər iki tərəfi maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi və potensial əməkdaşlıq imkanlarıyla bağlı müzakirələr aparılıb.

**Aygün**

# KTMT də sülh çağırışı edir

## Təşkilatın gücü bilavasitə Paşinyan faktoru, onun Qərbdən maliyyələşməsinə qarşı səfərbər olunub



**Ötən həftə KTMT-nin saytında təşkilatın Kollektiv Təhlükəsizlik Şurasının növbədənkənar sessiyasının yekunlarına dair bəyanat dərc olunub. Bildirilib ki, KTMT Şurası Bakı ilə İrəvan arasındakı ziddiyyətlərin siyasi və diplomatik yollarla həllinə çağırır.**

İclasda mövcud ziddiyyətlərin və mübahisəli məsələlərin siyasi-diplomatik vasitələrlə, o cümlədən Ermənistanın baş naziri, Rusiya prezidenti və Azərbaycan prezidenti tərəfindən 10 noyabr 2020-ci il, 11 yanvar 2021-ci il və 26 noyabr 2021-ci il tarixlərində qəbul edilmiş üçtərəfli bəyanatlarda əksini tapmış razılaşmalara uyğun olaraq həll edilməsinə qəti əminlik ifadə olunub.

**Məsələni "Şərq"ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bildirib ki, hazırda baş verən proseslər sülh müqaviləsinin bağlanmasına gətirib çıxaran çağırışları ehtiva edir:** "Son zamanlarda həm KTMT-nin iclasında, həm də Xankəndidə baş verənlər Ermənistanın sülh müqaviləsini imzalamasına hesablanıb. Təzyiqlər də həmin sülh müqaviləsinin bağlanması ilə əlaqədardır.

Lakin sual doğur ki, bəs Ermənistan bunu nə formada edəcək? Məsələn, onlar Qarabağın taleyini qeyri-müəyyən vəziyyətə salmaq üçün sülhməramlılarla bağlı açıqlama yaydılar.

Vurğuladılar ki, rus sülhməramlıları burada müəyyən olunmamış vaxta qədər qalacaqlar. Bütün proseslərin fonunda isə Rusiyanın Qərblə mübarizəsində, dağılmış mövqelərini bərpa etmək niyyəti dayanır. Moskva istəyir ki, sülh müqaviləsi Qərbin yox, məhz onların əli ilə imzalansın.

Baş verən son hadisələr də bunun vacib hissəsini təşkil edir. KTMT-nin gücü bilavasitə Paşinyan faktoru, onun Qərbdən maliyyələşməsinə qarşı səfərbər olunub".

**Nihat Müzəffər**

# Kəlbəcərdə insan sümüyü aşkarlanıb

## Aşkarlanan geyim əşyalarının işğalı zamanı əsir düşərək işgəncə ilə öldürülmüş şəxsə məxsus olması ehtimal edilir

**Kəlbəcərdə insan sümüyü və qadına məxsus geyim əşyaları aşkarlanıb.**

**Bu barədə "Şərq"ə Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib.**



Bildirilib ki, oktyabrın 27-də Kəlbəcər rayonunun Zallar kəndi ərazisində insan skeletinin hissələrinə məxsus olan eroziyaya uğramış sümük, eləcə də qadına məxsusluğu ehtimal edilən geyim əşyalarının fraqmentlərinin aşkar edilməsi ilə bağlı Kəlbəcər rayon prokurorluğuna məlumat daxil olub.

Prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə baxış keçirilən, aşkar edilən sümük və geyim əşyalarının fraqmentləri müvafiq formada qablaşdırılaraq ekspertiza aparılması məqsədilə götürülüb.

Aşkarlanan sümük və geyim əşyalarının Kəlbəcər rayonun Ermənistan tərəfindən işğalı zamanı əsir düşərək işgəncə ilə öldürülmüş şəxsə məxsus olması ehtimal edilir.

Hazırda araşdırma davam etdirilir.

# Hələ ki, Azərbaycan dövləti təmkin nümayiş etdirir

## "Ümidvarıq ki, İran rejimi öz yanlışlıqlarından geri duracaq"

İsmayıl Qocayev





**Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramovla İran İslam Respublikasının Xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı baş tutub. Nazirlər regionda son zamanlar yaranmış vəziyyət, o cümlədən ikitərəfli gündəliyin aktual mövzuları üzrə fikir mübadiləsi aparıblar.**

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub. İran Xarici İşlər Nazirliyinin (XİN) sözçüsü Nasir Kənani məlumat verib ki, parlament sədri Məhəmməd Baqir Qalibafın Azərbaycana səfəri baş tutacaq. Onun sözlərinə görə, səfər İran və Azərbaycan arasında yaxşı, yaxın və inkişaf edən əlaqələr çərçivəsində baş tutur. XİN sözçüsü bildirib ki, artıq səfərin təşkili və qrafiki müəyyən edilib: "Səfər tezliklə həyata keçiriləcək. Ümid edirik ki, bu səfər parlament sahəsində də əməkdaşlığın artırılmasına zəmin yaradacaq". Kənani vurğulayıb ki, İran İslam Respublikası hökumətinin bütün qonşularına münasibətdə əməli yanaşması qarşılıqlı hörmət əsasında münasibətləri dərinləşdirməkdən ibarətdir.

**Politoloq Azər Qasımov "Şərq"ə bildirib ki, Azərbaycan-İran münasibətləri son dövrlər elə bir hərəkət dinamikasına malikdir ki, bu münasibətləri pərdə arxasından zopa göstərmək, üzdə isə dostluq-qardaşlıq kimi xarakterizə etmək olar. Analitikə görə, əslində görüntüyə əsasən, kimsə konkret deyə bilməz ki, iki ölkə bir-biri ilə dostdur, ya da mülayim şəkildə desək, rəqibdir:** "Tərəflərin bir-birinə güc göstərdiyi zamanlarda belə bunun kimə qarşı edildiyinə görə konkret adın çəkilməməsi, paralel olaraq isə rəsmi hökumət nümayəndələri arasında əməkdaşlıqdan, iqtisadi əlaqələrin inkişafından danışılması, hətta daha da irəli gedərək konkret layihələrin icrası barədə qərarların qəbul edilməsi onu deməyə əsas verir ki, tərəflər gərginlikdə maraqlı deyillər. Məsələn, İran ərazisindən keçən Naxçıvana yolun çəkilməsinin, hər iki tərəfin ərazisində iqtisadi zonaların təşkil edilməsi, yük avtomobilləri üçün parkların təşkili, İran ərazisindən Azərbaycana keçən qaz layihəsinin imzalanması və s. addımlar aiddir. Bütün bunlara baxmayaraq, İran gözlənilməz, daha doğrusu, arzuolunmaz addımlar atır. Qafanda konsulluq açmaq, sərhəddə hərbi təlimlər keçirmək rəsmi Bakı üçün qəbuledilməzdir. Görünən isə odur ki, Azərbaycan və İran nə qədər bir-birindən uzaqlaşmış kimi görünsə də, bu, belə deyil. Geosiyasi vəziyyət və tarixi şərait elə gətirib ki, iki ölkənin siyasətində qeyri-müəyyənliklər yaranıb. Hesab edirəm ki, bu anlaşılmazlıqları danışıqlar yolu ilə həll etmək olar və bu, mütləqdir. Tarixi kökləri eyni olan iki dövlətin qarşılıqlı anlaşılmazlıqlara düşməsi ancaq üçüncü tərəflərin işinə yarayar".

*Ekspert İranın yenidən öz siyasətinə nəzər salacağına, ən azından qonşuluq münasibətlərinin qorunub-saxlanılması üçün addımlar atacağına ümid edir:* "Bunun əksini isə fikirləşmək istəmirik, çünki bu, regionun məhvi olardı. İran Azərbaycana görə haqsız addımlar atır. Azərbaycan dövləti isə buna təmkinli yanaşır. Ümidvarıq ki, İran rejimi öz yanlışlıqlarından geri duracaq, özünü tarixən Türk şahlarının hakimiyyəti dövründə olduğu böyüklüyünü geri qaytaracaq. Fars rejiminin hörmətini də türk şahlarının səviyyəsinə qaldıracaq. Əksi daha çox İran rejimi üçün yaxşı heç nə vəd etmir".

# Ölkədə bu qədər siyasi partiyalara ehtiyac yoxdur

## Təşkilatların təsis olunması üçün 10 min üzvün tələb olunması doğru addımdır



**"Azərbaycan kimi çox da böyük olmayan ölkədə bu sayda siyasi partiyaya ehtiyac yoxdur". Bu barədə Milli Məclisin üzvü Nəsib Məhəməliyev deyib. Deputat bildirib ki, "Siyasi partiyalar haqqında" fəaliyyətdə olan qanun 1992-ci ildə qəbul olunub:** "30 il ərzində ölkənin ictimai-siyasi həyatında köklü dəyişikliklər baş verib. Dövlət idarəetmə sistemində, ümumiyyətlə, cəmiyyətin bütün sahələrində islahatlar aparılıb. Faktdır ki, istənilən cəmiyyətin idarə olunmasında, inkişafında siyasi partiyaların, müxtəlif təbəqələrin maraqlarını təmsil edən, ictimai birliklərin rolu danılmazdır. Bu baxımdan, mövcud qanun müasir tələblərə cavab vermədiyi üçün, "Siyasi partiyalar haqqında" yeni qanunun qəbul olunması zərurəti yaranmışdı. Yeni qanun layihəsi hazırda ictimaiyyətin müxtəlif təbəqələri tərəfindən geniş müzakirə predmetinə çevrilib. Müsbət məqam ondan ibarətdir ki, Azərbaycanda fəaliyyət göstərən 60-a qədər siyasi partiya cəlb olunub, onlara təkliflərini, rəylərini bildirmək üçün şərait yaradılıb. Hesab edirəm ki, Azərbaycan kimi çox da böyük olmayan ölkə üçün bu sayda siyasi partiyaya ehtiyac yoxdur. Siyasi partiyanın təsis olunması üçün üzvlərin minimum sayının 1000 nəfərdən, 10 minə çatdırılması doğru addımdır".

"Mətbuatda, sosial şəbəkələrdə aparılan müzakirələr, səsləndirilən təkliflər, rəylər, bir daha göstərir ki, cəmiyyət öz taleyinə, gələcəyinə, ölkədə gedən siyasi proseslərə biganə deyil"

Parlament üzvü vurğulayıb ki, mətbuatda, sosial şəbəkələrdə aparılan müzakirələr, səsləndirilən təkliflər, rəylər, bir daha göstərir ki, cəmiyyət öz taleyinə, gələcəyinə, ölkədə gedən siyasi proseslərə biganə deyil: "Bu, təbiidir və yaxşı haldır. Yeni qanun layihəsi oktyabr ayının 24-də Milli Məclisdə, parlamentdə təmsil olunan və qeydiyyatdan keçmiş bir sıra siyasi partiyaların iştirakı ilə müzakirəyə çıxarıldı. Dinləmələrdən əvvəl Milli Məclisin sədri Sahibə xanım Qafarovanın iclas zalına gəlməsi, partiya sədrləri ilə görüşdə tövsiyə və tapşırıqların verməsi dövlətin siyasi sistemin təkmilləşdirilməsində maraqlı olduğunun göstəricisidir. İclasda iştirak edən, müxtəlif siyasi baxışlara malik siyasətçilər, təqdim olunan layihə ilə bağlı çoxsaylı təkliflərini səsləndirdilər. Ümumilikdə, 250-dən çox təklif və rəylərin səsləndirilməsi, yeni qanuna siyasi partiyaların kifayət qədər məsuliyyətlə yanaşdığını göstərir. İctimai müzakirələr, dinləmələr davam edir və əminəm ki, "Siyasi partiyalar haqqında" yeni qanun, yaxın vaxtlarda Milli Məclisin plenar iclasına çıxarılacaq, xalqın gələcək inkişafında əhəmiyyətli rol oynayacaq".

İsmayıl

## Şuşa Bəyannaməsi hər şeyi deyir

### Suvenerliyimizə təhdid olarsa, Türkiyə anında müdaxilə edəcək



**"Nə Rusiya, nə Ermənistan, nə də bir başqa ölkə Qarabağda söz sahibidir. Ermənistanın Baş naziri Nikol Paşinyanın bəyanatlarının heç bir təsiri yoxdur".**

*Bunu "Şərq"ə açıqlamasında hərbi-siyasi ekspert Həşim Səhrablı deyib. H.Səhrablının qənaətincə, Azərbaycan Ermənistandan güclüdür. Gücümüzə uyğun addım atmalıyıq:* "N.Paşinyan bəzi məqsədlərə çatmaq istəyir. Qərb dairələrinin "əli" ilə Cənubi Qafqazda söz haqqına malik olmağı hesablayır. Sadəcə, Rusiyadan dəstək alaraq varlıqlarını qoruya bilərlər. Paşinyan Ermənistanın vəziyyəti yaxılaşana qədər Rusiya faktorunu canlı saxlayır. Rusiyanın Qarabağdakı separatçı rejimi qoruması onların maraqlarına uyğun gəlir.

Hazırda real təhlükə yoxdur. Əlbəttə, qardaş Türkiyə Şuşa Bəyannaməsinə əsasən, həmişə Azərbaycanın arxasındadır. Suverenliyimizə qarşı hər hansı təhdid olduğu təqdirdə, Türkiyə anında müdaxilə edəcək.

Dəvətlə Türkiyə ordusu gələrsə, çözülməsi müşkül məsələ daha da dərinləşəcək. Rusiya tələb edəcək ki, Türkiyə ordadırsa, rus sülhməramlılar da qalmalıdır. Amma biz Qarabağda tam nəzarətin yalnız Azərbaycana məxsus olmasına çalışırıq".

*Qeyd edək ki, Azadlıq Radiosunun erməni xidməti, "Azatutyun" yazır ki, Ermənistanın Baş naziri Nikol Paşinyan oktyabrın 29-da hakim "Mülki müqavilə" partiyasının qurultayında çıxış edib. Qarabağdakı separatçı rejim isə Rusiyanın Qarabağda müddətsiz qalmasını istəyir: "Soçidə Rusiya sülhməramlılarının Dağlıq Qarabağda qalma müddətinin 15-20 il uzadılmasına dair sənədi imzalamağa hazıram".*

Aygün Tahir

## Vətən müharibəsi iştirakçısına vəzifə verildi



**Göygöl rayonunda Vətən müharibəsi iştirakçısına vəzifə verilib.**

Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayevin sərəncamı ilə Vətən müharibəsi iştirakçısı Yusif Hacıyev başçının köməkçisi vəzifəsinə təyin edilib.

*Qeyd edək ki, Hacıyev Yusif Faiq oğlu Bakı Dövlət Universitetini bitirib. 2020-ci il sentyabr ayından Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edib.*

## KİV: "Bolqarıstan Ukraynaya dolayı yolla rekord sayda silah tədarük edib"



**Bolqarıstan Ukraynaya müharibə başlayandan indiyədək dolayı yolla rekord sayda silah satan ölkədir.**

"Report" "RBC-Ukraina"ya istinadən xəbər verir ki, bu barədə "Euractiv" məlumat yayıb.

Nəşrin məlumatına görə, Bolqarıstan Ukraynaya azı 1 milyard avro dəyərində silah-sursat tədarük edib.

Bolqarıstanla yanaşı, Ukraynaya dolayı yolla silah ixracı Polşa və Rumıniya vasitəsilə də həyata keçirilir.



# Xankəndidə bir də mitinq olsa, dərhal dayandırılmalıdır

## Tural Abbaslı: "Ermənistandan adam daşınaraq Xankəndidə təşkil olunmuş mitinq şousu birbaşa Azərbaycanın suverenliyinə təhdiddir"

**Oktyabrın 30-da Azərbaycanın Rusiya sülhyaratma kontingentinin müvəqqəti nəzarətində olan Qarabağ bölgəsində kütləvi aksiya keçirilib. Separatçı qurum Rusiyadan "Qarabağ xalqının təhlükəsizliyini təmin etmək üzrə öhdəliklərini yerinə yetirməyi" xahiş edib.**

Rusiyaya müraciətdə Moskvaya bu məqsədlə "əlavə siyasi və hərbi mexanizmlər" tətbiq etmək təklif olunub. Müraciətdə Qarabağın Azərbaycanın tərkibində olmayacağı tezisi də yer alıb. Vurğulanıb ki, "Ermənistanda heç bir hökumətin Qarabağ xalqının təhlükəsizliyini təmin etmək missiyasından əl çəkməyə və hər hansı sənədə baxmağa haqqı yoxdur...".

Xatırladaq ki, Qarabağdakı kütləvi aksiya Rusiyanın Soçi şəhərində Azərbaycan, Rusiya və Ermənistan liderlərinin görüşündən bir gün öncə keçirilib. Həmçinin, Ermənistanın Baş naziri Nikol Paşinyan Qarabağdakı Rusiya hərbçilərinin mandatının 10-20 illədək uzadılması haqda sənədə imza atmağa hazır olduğunu deyib. Ona da diqqət çəkək ki, Rusiya Prezidenti Vladimir Putin ötən həftə "Valday" Forumunda çıxışında deyirdi ki, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin "Vaşinqton variantı" Qarabağ üzərində Bakının suverenliyini nəzərdə tutur. Onun sözlərinə görə, hansı variantı seçmək Ermənistanın, erməni xalqının və Ermənistan rəhbərliyinin öz işidir.

Yayılan məlumatlara görə, Xankəndidə Ermənistan siyasi camiəsinin təşkil etdiyi mitinqə gələnlərə pul paylanılıb. Qeyd edilib ki, bir müddət əvvəl Xankəndiyə köçən rusiyalı milyarder Ruben Vardanyan mitinqin çoxminli olması üçün xeyli xərcə düşüb. O, Xankəndidən kənarda olanların öz maşını ilə mitinqə qatılması üçün 8 litr pulsuz benzin verib, Ermənistandan gələnlərə isə 50 dollar mükafat ayırıb. Ermənistandan avtobusa doldurulub gətirilənlər Laçın dəhlizinə daxil olduqdan sonra salondaca "mükafat"larını alıblar. Həmçinin mitinq iştirakçılarının su və qida ilə təminini də Ruben Vardanyan öz üzərinə götürüb. Vardanyanın "Rusiya layihəsi" olduğu, Moskvanın sifarişlərini yerinə yetirmək istiqamətində çalışacağı bildirilir. Digər iddiaya görə, Xankəndi mitinqi Rusiyanın Qarabağdakı sülhməramlı kontingentinin komandiri, general-mayor Andrey Volkovun təşəbbüsü ilə baş tutub.

**AĞ Partiya sədri Tural Abbaslı "Şərq"ə deyib ki, Ermənistandan adam daşınaraq Xankəndidə təşkil olunmuş mitinq şousu birbaşa Azərbaycanın suverenliyinə təhdiddir. Partiya rəhbərinin sözlərinə görə, bu təxribat Azərbaycan qanunvericiliyinə zidd davranış olmaqla yanaşı, konstitusiyamızı qəbul etməmək cəhdidir:** "Mitinqdə açıq-aşkar Azərbaycan əleyhinə, ərazi bütövlüyümüzə qarşı şüarlar səsləndirilib. Qəti surətdə ərazilərimizdə təxribat xarakterli mitinqlərin keçirilməsinə imkan verməməli, bunun yolverilməz olduğunu bəyan etməliyik. Xəbərdarlığımıza rəğmən, yenə də asiya keçirilməsinə cəhd olarsa, qanunlarımız tapdanarsa, mitinq dərhal dağıdılmalıdır. Əlbəttə, Xankəndi mitinqi orada yaşayan 3-5 "baldırı çılpaq" erməninin təşkil edəcəyi aksiya deyil. Hazırda Xankəndi və ətrafında həmin sayda erməninin yaşamadığı hamıya bəllidir. Deməli, Azərbaycanın hələ də açıq buraxdığı Laçın yolu vasitəsi ilə Ermənistandan Xankəndinə avtobuslarla erməni daşınıb. Məqsəd rəsmi Bakıya təzyiq göstərmək, dünyanın diqqətini cəlb etməkdir və təbii ki, Paşinyanın əlini gücləndirməkdir". T.Abbaslı vurğulayıb ki, dəfərlərlə bəyan edildiyi kimi Qarabağdakı ermənilər Azərbaycan vətəndaşlarıdır: "Qanunlarımıza riayət edəcəkləri, ərazi bütövlüyümüzü və suverenliyimizi tanıyacaqları təqdirdə Qarabağda rahat yaşaya bilərlər. Ermənistandan fərqli Azərbaycanda etnik ayrı-seçkilik yoxdur. Lakin baş verən proseslər, görüş öncəsi Paşinyanın bəyanatları və Xankəndi mitinqi göstərir ki, İrəvan sülhə hazır deyil. Əgər Ermənistan üçtərəfli sazişə, 10 noyabr bəyanatına əməl etmirsə, Azərbaycan da imtina etməlidir. Öz ərazilərimizdə ordumuzun, hüquq-mühafizə orqanlarının gücü hesabına suverenliyimizi, qayda-qanunlarımızı tətbiq etməliyik. Söhbət təkcə Xankəndi və ətraf bölgələrdən getmir, həm də tarixi torpaqlarımızı - Zəngəzuru, Dərələyəzi, Basarkeçəri nəzərdə tuturam".

**İsmayıl Qocayev**

# Laçın dəhlizi bağlanmalıdır

## Yoxsa rusların senarisi ilə Xankəndidə mitinqlərin sayı çox olacaq



**"Xankəndidə keçirilən mitinqlər Azərbaycan ictimaiyyətindəki hər kəsi narahat edib və etməlidi də".**

**Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Rusif Məmmədsoy Xankəndidə ermənilər tərəfindən keçirilən aksiyaya münasibət bildirərkən deyib.**

Analitik qeyd edib ki, Xankəndi Azərbaycanın ayrılmaz hissəsidir və ora daxil olmaqla digər 4 rayonumuzda da Azərbaycan yurisdiksiyası mütləq şəkildə bərpa edilməlidir: "Biz rus sülhməramlılarının orada qalmaması üçün əlimizdən gələni etməliyik. Azərbaycan indiki məqamda qətiyyətlə sərt üzünü göstərməli və Xankəndidə antiterror əməliyyatları ilə bağlı siqnallarını hər iki tərəfə ötürməyi bacarmalıdır. Rəsmi Bakı bununla qarşı tərəfə atacağı addımların bəlli olduğunu çatdıracaq. Digər tərəfdən suallar yaranır ki, bu qədər erməni Xankəndiyə necə gəlib?

Axı burada o qədər insan yox idi. Əlbəttə ki, Laçın dəhlizi vasitəsi ilə. Xatırlayırsızsa, bir neçə gün öncə Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yaymışdı. Bəyanatda bildirilirdi:

- Biz Laçın dəhlizini minaların, texnikaların daşınması üçün açıq saxlamamışıq. Yəqin ki, o minalardan biri kimi Xankəndiyə gələn ermənilər nəzərdə tutulurdu".

*Siyasi şərhçi bildirib ki, oradan keçən avtobuslara "dur" demək lazımdır:* "Burada sülhməramlılar öz missiyasını düzgün yerinə yetirməli idi. Lakin təəssüf ki, bölgəyə sülhməramlı missiyası altında gələn rusiyalılar, Ermənistanın mövqeyinin müdafiəçisi kimi çıxış edirlər.

Ortada Azərbaycana qarşı formalaşan bir cəbhə var. Bu cəbhənin qarşısında isə Pakistan, Türkiyə, İsrail kimi dostlarımız dayanır ki, onların vasitəçiliyi ilə sözügedən cəbhəni yarmaq məcburiyyətindəyik.

Bunun üçün isə Bakı qətiyyətli şəkildə Laçın dəhlizinin bağlanmasını bildirməlidir. Çünki bu dəhliz bağlanmasa Xankəndidə rusların senarisi əsasında həyata keçirilmiş dırnaqarası mitinqlərin sayı çox olacaq. Xatırlayırsızsa, 1988-ci ildə də Xankəndidə mitinqlər olmuşdu.

Ancaq Azərbaycan 1988-ci ildəki ölkə deyil ki, bunlara boyun əysin. Bizim hər birimiz münaqişənin sülh yolu ilə həll olunmasını istəyirik. Əgər proseslər hərbi müstəviyə keçərsə, hər birimiz əsgərik və Qarabağın Azərbaycanın yurisdiksiyasına keçməsi üçün canımızı verməyə hazırıq".

**Nihat Müzəffər**

# "Şuşa" qəzeti 90 yaşında...

## Natiqlər yubilyar nəşrin tezliklə doğma şəhərdə fəaliyyət göstərəcəyinə inamlarını ifadə ediblər

**Oktyabrın 29-da Bakıdakı Şuşa rayon 1 saylı orta məktəbinin akt zalında Azərbaycan Mətbuat Şurasının və Şuşa Rayon İcra Hakimiyyətinin birgə təşəbbüsü ilə "Şuşa" qəzetinin 90 illik yubiley tədbiri keçirilib.**

Azərbaycanın dövlət himninin səslənməsi ilə başlanmış tədbirdə torpaqlarımızın ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən övladlarının, şəhid jurnalistlərin xatirələri bir dəqiqəlik sükutla yad edilib.

**Şuradan "Şərq"ə bildirilib ki, toplantını açan Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva "Şuşa" qəzetinin Azərbaycanın ictimai həyatında oynadığı rolu əks etdirən fikirlərini bölüşüb.** O bildirib ki, 1932-ci ildə ilk sayı işıq üzü görmüş nəşr sabiq sovet quruluşunun simvollarını daşıyan müxtəlif adlarla fəaliyyət göstərməsinə baxmayaraq, həmişə özünün cəsarətli mövqeyi ilə seçilib, respublikamızda milli mənlik şüurunun formalaşmasına misilsiz töhfələr verib. Qəzetdə Azərbaycanın görkəmli şəxsiyyətlərinin düşündürücü mövzularda çoxsaylı məqalələri yayımlanıb. Ona rəhbərlik edənlər də vətənpərvər ziyalılar olublar. V.Fətəliyeva buna görə "Şuşa" qəzetinin 90 illik yubileyini ümummilli miqyas daşıyan hadisə kimi dəyərləndirib.



Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov iştirakçıları salamlayaraq bildirib ki, Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 2020-ci ildə Şuşanı işğaldan azad etməsi bu müqəddəs diyarın adını daşıyan nəşrin əlamətdar tarixinin böyük ruh yüksəkliyi ilə qeyd edilməsində başlıca amildir. O, çıxışında həmçinin yubilyar nəşrin tezliklə doğma şəhərdə fəaliyyət göstərəcəyinə inamını bildirib.

**Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid çıxışında Şuşa xatirələrini dilə gətirib. O bildirib ki, Şuşa ilə bağlı ən gözəl və təsirli sözlərin müəllifi ölkə Prezidenti cənab İlham Əliyevdir.** Azərbaycan xalqının bu müqəddəs şəhərə can atmasının ən böyük çağırışını edən şəxsin dövlət başçısı olduğunu deyən MŞ sədri onu da bildirib ki, "Şuşa" qəzeti də hər daşında, hər qayasında milli xarakterimizin, milli düşüncə tərzimizin rəmzlərini daşıyan doğma diyarın ahəngdarlığını sözə, sənət nümunəsinə çevirmək istiqamətində uzun yol gəlib. MŞ sədri çıxışında, həmçinin yubilyar nəşrin əsası Həsən bəy Zərdabi tərəfindən qoyulmuş milli mətbuatımızın ənənələrinə sadiq qalaraq maarifpərvər missiya daşıdığını vurğulayıb. R.Məcid "Şuşa" qəzetinin rəhbərlik etdiyi qurum tərəfindən diplomla təltif olunduğunu bildirib və diplom plaketini qəzetin redaktoru Vasif Quliyevə təqdim edib.

Yubiley tədbirində Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, Milli Məclisin deputatı Ziyad Səmədzadə, MŞ İdarə Heyətinin üzvü, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının sektor müdiri Elmir Vəlizadə, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Elçin Əhmədov, Milli Məclisin deputatı Elman Nəsirov, sabiq deputat Flora Qasımova, "Qarabağa aparan yol" qəzetinin baş redaktoru Əli Mahmud və başqaları Şuşa adının vətənimiz Azərbaycanın şərəf nişanı olduğunu bildirərək onun işğaldan azad edilməsinə görə Azərbaycan Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildirib, Şuşa uğrunda döyüşlərdə həlak olmuş övladlarımıza rəhmət diləyiblər. Onlar həmçinin qeyd ediblər ki, 90 yaşı tamam olan "Şuşa" qəzeti təkcə şəhər həyatının deyil, ümumən, Qarabağla bağlı tarixi həqiqətlərin işıqlandırılmasında mühüm rol oynayıb, geniş maarifçilik işi aparıb, dövlətçilik irsimizin təbliğinə, ədəbi-mədəni ənənələrimizin zənginləşməsinə töhfələr verib və indi də bu vacib missiyanı davam etdirir. Qəzetə 2005-ci ildən "Canlı Şuşa ensiklopediyası" adı ilə tanınan, bütün varlığı ilə bu müqəddəs diyarımıza bağlı olan tədqiqatçı jurnalist, publisist və tərcüməçi Vasif Xosrov oğlu Quliyevin rəhbərlik etdiyini deyən natiqlər ona gələcək fəaliyyətində uğurlar arzulayıblar.

Sonda çıxış edən "Şuşa" qəzetinin redaktoru V.Quliyev nəşrin fəaliyyətinə verilən yüksək dəyərə görə toplantı iştirakçılarına təşəkkürünü bildirib. Yubiley tədbiri Şuşadan olan incəsənət ustalarının konsert proqramı ilə davam etdirilib.

**Sücayət**

# Rusiya Avropaya sata bilmədiyi qazı Çinə satmağa çalışır

## Ancaq bu istiqaməti hərəkətə gətirmək üçün illər lazımdır




**Rusiya Avropanın qaz bazarında mövqelərini itirmək üzrədir. Əgər keçmiş illərdə Avropa İttifaqının Rusiya qazından asılılığı 35 faiz civarında idisə, hazırda bu rəqəm 7 faizə qədər enib. Bəzi ölkələr isə ümumiyyətlə Rusiya qazından tamamilə imtina ediblər, ilin başlanğıcından qaz ehtiyatlarını başqa ölkələrdən idxal hesabına doldurublar.**

Rusiya qazından ən çox asılı olan ölkələrdən biri Almaniya idi. Ancaq hətta Almaniya belə bu qış Rusiya qazı olmadan keçinməyə çalışacaq. Avropa ölkələri baha olmasına baxmayaraq, ABŞ-dan kifayət qədər sıxılmış qaz alıblar. Avropa ölkələrinin ABŞ və Norveçdən aldıqları qaz tələbatının təxminən 80 faizini ödəyir.

**"Atlas" Araşdırmaları Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Rusiya Avropaya sata bilmədiyi qazı Asiya bölgəsinə istiqamətləndirməyə çalışır. Analitikin fikrincə, əsas hədəf Çindir:** "Ancaq bu istiqaməti hərəkətə gətirmək üçün illər lazımdır. Rusiya iqtisadiçılarının fikrincə, Moskvanın Pekinlə danışıqlarda mövqeləri zəifdir. Pekin bilir ki, Rusiya Avropaya sata bitmədiyi qazı Çinə satmağa çalışır. Ona görə də Pekin qərarında tələsmir və qazın qiymətini aşağı salmağa çalışır ki, bu, Rusiyanın maraqlarına cavab vermir. Rusiyanın "Qazprom" şirkəti Pekinlə danışıqlardan narazıdır. "Qazprom" şirkətinin qaz nəqli 40 faizdən çox azalıb. Bu, təxminən 59 milyard kubmetr qaz həcmidir. Bu ilin sonu üçün "Qazprom"un itkiləri daha da artacaq. Bu səbəbdən Avropa bazarını Asiya bazarı ilə əvəz etmək praktik baxımdan mümkün deyil. Buna görə də rusiyalı iqtisadi ekspertlər Sibirin qaz infrastrukturunun inkişafına xərclərin azaldılması vacibliyini bildiriblər. Çünki Sibirin qaz infrastrukturuna qoyulacaq yatırımlar geri qayıtmayacaq".

**Ekspertə görə, buna baxmayaraq, Rusiya Çinə "Sibirin gücü-2" boru xəttinin tikintisinə başlamaq istəyir:** "Boru xətti Monqolustanın ərazisindən keçməlidir. Rusiya hakimiyyəti hesab edir ki, Çinin iqtisadi inkişafı artdıqca bu ölkənin əlavə enerjiyə ehtiyacı olacaq. Çin Rusiya qazını ucuz almağa çalışacaq. "Qazprom" şirkəti Avropada həm bazarını, həm də gəlirlərini itirir. Rusiya İran üzərindən Pakistan bazarına da çıxış əldə etmək istəyir. Pakistanın qaza tələbatı var. Ona görə bəzi ekspertlərin fikrincə, Rusiya İran və Pakistanla qaz anlaşmaları imzalaya bilər. Ancaq bu layihənin reallaşması üçün zaman lazımdır".

**İsmayıl**

# Biz hazırda geosiyasi savaşın mərkəzindəyik

## "AzTv-nin İran və Rusiyaya cavab verməməsi ayıb olardı"



**Son günlər Azərbaycan Televiziyasında (AzTV) İran və Rusiyaya qarşı olduqca səviyyəli verilişlər hazırlanır. Bu addım cəmiyyətdə, eləcə də sosial platformalarda müsbət qiymətləndirilir.**

*Məsələyə münasibət bildirən tanınmış telejurnalist, professor Qulu Məhərrəmli "Şərq"ə bildirib ki, əvvəllər Azərbaycan Televiziyası ya bunları edə bilmirdi, ya da etməyə icazə vermirdilər:* "Burada təəccüblü heç bir şey yoxdur. Biz hazırda geosiyasi savaşın mərkəzindəyik. Bu barədə isə dövlətin əsas televiziyasının danışmaması ayıb olar. Ona görə də bu, normal haldır. Çünki ölkə ictimaiyyəti bilməlidir ki, bizim çevrəmizdə hansı proseslər gedir. Yəni İranın bizə münasibəti necədir? Niyə o, islam pərdəsi altında Azərbaycanda öz təbliğatını aparır, amma böhran vəziyyətində düşmənlərimizin yanında dayanır?

Rusiya və digər ölkələrin məqsədləri nədir? Xalqımızı və tamaşaçıları gedən geosiyasi proses və təhlükəsizlik kodları haqda maarifləndirmək üçün Azərbaycan Televiziyasının belə verilişlər hazırlamasını təqdir edirəm. Bütün bunlar davam etməlidir.

Əlbəttə, burada dəqiq, obyektiv, dürüst ölçüləri gözləmək və təbliğatdan kənarda durmaq lazımdır. İnsanlara isə hazır mesajlar yox, hadisələrin təhlilini vermək lazımdır ki, nə baş verdiyini dəqiq anlasınlar".

**Nihat**

# "Türkiyə mediası haqlı savaşda yanımızdaydı"

## Elnur Eltürk: "Demək olar ki, qardaş ölkənin jurnalistləri hər saniyə Qarabağda baş verənləri dəqiqliklə çatdırırdılar"



**Oktyabrın 28-də Şuşa şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin Audiovizual Media üzrə Tənzimləyici Orqanlarının Forumunun yaradılması barədə Niyyət Bəyannaməsi imzalanıb.**

Sənədə Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin nümayəndələri imza atıblar.

Qeyd edək ki, Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi qismində iştirak edən dövlətlərin Audiovizual Media üzrə Tənzimləyici Orqanlarının Forumu Türkiyədə keçiriləcək.

**Belə səfərlərin sayının artmalı olduğunu deyən Türk Ağsaqqalları Birliyinin sədr müavini, diaspor üzrə araşdırmaçı-ekspert Elnur Eltürk "Şərq"ə vurğulayıb ki, nəinki Şuşa, bütün Qarabağ qardaş Türkiyə də daxil olmaqla, xarici medianın diqqətində olmalıdır:** "Təbliğatda və həqiqətlərimizin dünya ictimaiyyətinə çatdırılması istiqamətində medianın böyük rolu danılmazdır. Düşünürəm ki, bu səfərlər Şuşaya olan diqqətin artmasına səbəb olacaq. Bir daha dünyanın diqqətini Şuşaya, Qarabağa yönəldəcək. Türkiyə mediası isə son illər çox inkişaf edib və dünyaya çıxışı genişlənib. Digər tərəfdən nüfuzlu kanallar Azərbaycan mövzusuna böyük diqqət ayırırlar.

Türkiyənin "HaberGlobal" kimi nüfuzlu kanalı Azərbaycanla, bölgə ilə bağlı müntəzəm verilişlər yayımlayır. Vətən müharibəsində də Türkiyə mediasının Azərbaycana dəstəyi misilsiz oldu.

İnformasiya blokadasının yarılmasında Türkiyə mediasının əməyi unuduImazdır. Azərbaycan xalqı bu dəstəyi heç zaman unutmayacaq. Demək olar ki, qardaş ölkənin jurnalistləri hər saniyə Qarabağda baş verənləri dəqiqliklə çatdırırdılar.

Prezident İlham Əliyev qardaş Türkiyə kanallarına müsahibələrində Ermənistanın işğalçılıq siyasətini peşəkar səviyyədə, yüksək diplomatik məharətlə ifşa edirdi. Prezident İlham Əliyevin müsahibələri böyük reytinqlə izlənilirdi.

Milyonlarla izləyicisi olan kanalların Azərbaycana dəstəyi xalqımız arasında birliyi də gücləndirirdi. Haqlı savaşda özümüzü yalnız hiss etməyə qoymurdu".

**Nihat Müzəffər**

# İran rejimi dalğanın qarşısını ala bilməyəcək

## Cənubi Azərbaycandakı etiraz aksiyaları milli azadlıq hərəkatına çevrilir



**"İranın əksər şəhərlərində geniş aksiyalar keçirilir. Diqqətçəkən məqam aksiyaların Cənubi Azərbaycan vilayətlərini də əhatə etməsidir". Bu sözləri "Şərq"ə siyasi şərhçi Turan Rzayev deyib. Ekspert bildirib ki, Urmiyada, Təbrizdə, Güney Astarada və s. şəhərlərdə kütləvi aksiyalarda polislə qarşıdurmalar yaşanıb:**

"Ümumiyyətlə, İranda etiraz aksiyaları günü-gündən şiddətlənsə də, Mərkəzi İran vilayətləri ilə Cənubi Azərbaycan vilayətlərində etiraz aksiyaları kəskin fərqlənir. Məsələn, Tehran metrosunda "Bu il qan ilidir, Xamenei devrilməlidir" şüarı səsləndirilir. Şuş məhəlləsində "Öldürərik bacımızı (Məhsa Əmini) öldürənləri" şüarları populyardır. Təbrizdə isə "Azadlıq, Ədalət, Milli Hökumət", o cümlədən Astarada, Urmiyada "Azadlıq" şüarları səsləndirilir, Xameneinin banneri yandırılır. Molla rejiminin etiraz aksiyalarına müdaxiləsində də açıq-aşkar fərqlər hiss edilir. Belə ki, Təbrizdə barikadalar quran İran polisi azərbaycanlılara atəş açır. Etiraz aksiyaları müstəqillik hərəkatına çevrilir. Diqqətçəkən bir digər maqam isə Cənubi Azərbaycan vilayətlərində başlanan etiraz aksiyalarının tədricən Təbriz mərkəzli təşkilatlanmasıdır. Milli fəallar açıq şəkildə Cənubi Azərbaycanın müstəqilliyini tələb edir. İran xaricində yaşayan cənubi azərbaycanlı siyasi mühacirlər də Cənubi Azərbaycan vilayətlərindəki etiraz aksiyalarına ölkə xaricindən dəstək verir".

**T.Rzayev vurğulayıb ki, Cənubi Azərbaycanda baş verən etiraz aksiyalarının tədricən milli azadlıq hərəkatına çevrilməsi həm də rejimin İran Konstitusiyasının 15-ci və 19-cu maddələrini pozması ilə əlaqədardır:** "Ölkədə yaşayan bütün etniklər öz ana dilində təhsil almalı, vətəndaş hüquqlarına malik olmalıdırlar. Buna baxmayaraq, İranda yaşayan qeyri-fars xalqlar arasında yalnız ermənilərin ana dilində məktəbləri mövcuddur. Bundan başqa, rejim azərbaycanlılara qarşı kütləvi repressiyalar təşkil edir, gəncləri sırf ana dillərində danışmaq, təhsil almaq istəmələrinə görə həbsə atıb işgəncələr verir. Buna görə də Cənubi Azərbaycan vilayətlərindəki etiraz aksiyaları tədricən İranın digər vilayətlərindən fərqlənərək motivini dəyişir. Etiraz aksiyalarının tədricən güclənməsi və Cənubi Azərbaycan vilayətlərində milli hərəkata çevrilməsi, eyni zamanda təşkilatlanması Cənubi Azərbaycan Cümhuriyyətinin qurulması ümidlərini artırır. İran bunu separatçı hərəkat adlandırsa da, hüquqi olaraq bu, Cənubi Azərbaycanın öz müqəddəratını təyin etməsidir".

**İsmayıl**

# "Çində yoluxma artımının bizə dəxli yoxdur"

## Mərdan Əliyev: "Hazırkı durumu nəzərə alaraq təhlükə sovuşub deyə bilərik"




**Çində "Covid-19"-la bağlı vəziyyət yenidən kəskinləşib. Ölkənin üçüncü ən böyük şəhəri olan Quanqcouda "Covid-19" tədbirləri genişləndirilib. Şəhərdə 45 yüksək riskli və 79 orta riskli ərazidə tam və ya qismən qapanma tətbiq edilib.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Quanqcou şəhərində "Covid-19" hallarının artması ilə əlaqədar həyata keçirilən qismən karantin tədbirləri şəhərin əksər hissəsinə şamil edilib.

18 milyondan çox əhalisi olan şəhərdə əvvəlki gün 65 olan hadisələrin sayı son 24 saatda 139-a yüksəlsə də, Şanxayda olduğu kimi uzunmüddətli qapanma olacağı gözlənilir.

Şəhər boyu bütün vətəndaşlar üzərində kütləvi sınaqlar aparılarkən riskli ərazilərdəki kafe və restoranlar bağlanıb, kütləvi tədbirlər müvəqqəti dayandırılıb.

Vətəndaşlardan marketlərə, supermarketlərə və ticarət mərkəzlərinə daxil olmaq üçün 48 saat ərzində edilən "Covid-19" testlərinin mənfi nəticəsini göstərməsi tələb olunur.

Mütəxəssislər hazırkı dalğanı Çinin Uhan böhranından sonra "COVİD-19" pandemiyası ilə üçüncü böyük mübarizəsi hesab edirlər. Azərbaycanda isə Çindən gələn xəbərlərin fonunda insanlar arasında ajiotaj yaranıb.

**İnfeksionist-hepatoloq Mərdan Əliyev isə "Şərq"ə açıqlamasında deyib ki, bundan sonra "Covid-19"-la bağlı təşvişə düşməyə əsas yoxdur. Bir çox ölkələrdən fərqli olaraq pandemiya zamanı Çində virusa qarşı təbii immunitet formalaşmadı:** "İlk gündən tətbiq edilən məhdudiyyətlər hesabına Çin insanı virusla təmasda olmadı. O zaman onun qarşısını aldılar. Amma bütün dünyada virus yayıldı. İndi isə "Omikron" variantı Çində yenidən yayılıb. Bu virus isə digər koronaviruslardan 4-5 dəfə daha sürətli yoluxur. Bu da çox böyük fərqdir. Buna görə də Çində əvvəlki virusun qarşısını ala bilmişdilərsə, artıq bunun qarşısını almaq çətindir. Hazırda bunun öhdəsindən gələ bilmirlər. Çində yoluxma sayı sürətlə artır. Bizdə isə buna qarşı kollektiv immunitet formalaşıb. Çində sürətli artmanın bizə təsiri yoxdur.

Hazırda yoluxmada ciddi eniş var. Virusa ağır şəkildə yoluxanlar isə demək olar ki, yoxdur. Koronavirus artıq qripəbənzər simptomlarla müşahidə olunduğu üçün xəstəxanaya müraciət etmədən sağalma mümkündür. Beləliklə, ciddi təhlükənin olacağını düşünmürəm. Hazırkı durumu nəzərə alaraq təhlükə sovuşub deyə bilərik. İlin sonuna qədər təhlükəli vəziyyət olmayacaq. Zaman keçdikcə xəstəliyin aktuallığı daha da azalacaq".

**Şəymən**

# Attestatla qəbul olunanların imtahandan keçirilməsi vacibdir

## Ancaq xaricdə tanınmış universitetlərdə tibb təhsili alan məzunlara şübhə ilə yanaşmaq olmaz

**Xaricdə rezidentura/ordinatura təhsili almış şəxslərin diplomunun tanınması ilə bağlı yaranan problemlərə aydınlıq gətirilib. İstanbulda jurnalistlərin suallarına cavab verən Səhiyyə naziri Teymur Musayev bildirib ki, bu istiqamətdə xüsusi komissiya yaradılıb:**

"Həmin komissiya birbaşa Səhiyyə Nazirliyinin nəzarəti altındadır. Komissiya artıq işini bitirib. Bir neçə günə sənəd qəbulu elan olunacaq. Müxtəlif ölkələrdən məzun olmuş həkim və mütəxəssislərimizin tədris planları qiymətləndirilib. Azərbaycanda qəbul olunmuş tədris standartlarına və proqramlarına uyğun olub-olmadığı müəyyənləşdirilib. Hazırlıq üçün bir aya yaxın vaxt veriləcək. Səhiyyə Nazirliyinin rəsmi saytında hər ixtisas üzrə sual toplusu dərc ediləcək və hazırlaşmağa kifayət qədər vaxt olacaq". Teymur Musayev vurğulayıb ki, ondan sonra vahid şəkildə imtahanlar keçiriləcək: "İmtahanlardan keçən şəxslər həmçinin müəyyən mərhələləri də keçəcəklər. Onların detallarını indi tam açıqlamaq istəmirəm. Artıq bütün təkliflər hazırdır. Yəqin ki, bu həftə ərzində onlarla tanışlıq mümkün olacaq".



**Məsələyə münasibət bildirən həkim Vaqif Qarayev "Şərq"ə açıqlamasında qeyd etdi ki, diplomların tanınmasında müxtəlif ölkələrin hökumətləri fərqli yanaşmaları mövcuddur:**

- Diplomların tanınması məsələsində hər hökumətin özünün qərarı var, bu, daxili məsələdir. Hökumətlər arasında diplomların qarşılıqlı tanınması sazişi ola bilər. Baxır, hansı ali məktəblərə bu şamil edilir, hansına edilmir. Bu məsələyə fərdi yanaşma sərgilənir çox vaxt. Şəxsən mən xarici ölkə ali məktəblərinə attestatla qəbulu qəbul etmirəm. Attestatla qəbul olar?!. Əgər Azərbaycan səhiyyə nazirinin dediyi imtahan məsələsi attestatla qəbul olanlara aiddirsə, niyə də olmasın?! Bir var ki, qəbul olunmuş qaydada qəbul imtahanları verib ali məktəblərə daxil olurlar, bu, normaldır. Həm də universitetdən universitetə fərq var. Dünyada tanınan, reytinq cədvəlində ilk sıralarda olan tanınmış ali məktəblər var ki, oranı bitirmiş məzuna şübhə ilə yanaşmaq olmaz. Belə deyək, İstanbul Cərrahpaşa tibb fakültəsi saxta diplom verərmi? Yaxud Almaniyada həqiqi tibb təhsili alıb həkimlik ixtisasına yiyələnmiş şəxsə şübhə ilə yanaşmaq olarmı? Bunu düşünmək absurddur. Lakin saxta diplom verən ali məktəblər də var. Özəl xəstəxanalarda saxta diplomlarla işləyənlər vardı. Xeyli təmizləmə aparıldı bununla bağlı. Diplomların tanınması məsələsində yəqin ki, yanaşma fərqli olacaq. İnanmıram ki, məlum qərar bütün xarici ali məktəblərə aid edilsin. Mənim mövqeyim budur ki, hansı xarici ali məktəblə diplomların qarşılıqlı tanınması anlaşması varsa, onlara şübhəylə yanaşılmasın, amma hansı ali məktəblə ki belə bir anlaşma yoxdur, o məzunlar imtahana cəlb edilsin. Çünki tədris proqramları fərqli ola bilər, bəlkə məzun heç dərslərə getməyib, tibbi biliklər əldə etməyib, yaxud zəif mənimsəyib. Bunlar aydınlaşmalıdır.

**Məlahət Rzayeva**



# Korrupsiyadan uzaq ordu yaranır

## "Şuşa Bəyannaməsindən sonra Azərbaycan Silahlı Qüvvələri Türkiyə ordusunun mini modelinə keçir"

**Hərbi qulluqçulardan rüşvət alan N saylı hərbi hissənin zabiti, həkim Vəli Quliyev həbs olunub.**

Hərbi hissənin tibb məntəqəsində həkim işləyən Vəli Quliyev müxtəlif vaxtlarda hərbi qulluqçulardan pul alaraq onları müalicə adı ilə hospitala göndərib. Hüquq-mühafizə orqanları tərəfindən keçirilən araşdırma zamanı Vəli Quliyevin əməllərinin üstü açılıb. Xəstəlik sənədi verilən hərbçilərin əksəriyyətinin müalicəyə ehtiyacının olmadığı, rüşvət verməklə hospitala göndərildikləri məlum olub. Vəli Quliyev barəsində Cinayət Məcəlləsinin rüşvət alma maddəsi ilə cinayət işi başlanaraq barəsində həbs-qətimkan tədbiri seçilib.

Quliyev Vəli Bəkir oğlu Vətən müharibəsindəki xidmətlərinə, Qubadlının və Füzulinin azad olunmasına görə medallarla təltif olunub.

**Məsələ ilə bağlı "Şərq"ə danışan hərbi ekspert Elxan Şıxəliyevin qənaətincə, bəzən Müdafiə Nazirliyi tərkibindəki idarələrdə hərbi qulluqçuların adları rüşvət almaqda, maliyyə resurslarına nəzarət etməməkdə hallanır:** "Artıq böyük həcmdə korrupsiyaya yol verməkləri mümkün deyil. Dövlət Təhlükəsizlik Xidməti (DTX) hüquqi prosedurların pozulmasına ciddi nəzarət edir. Bir müddət öncə Müdafiə Nazirliyinin Maliyyə İdarəsinin rəisi, Quru Qoşunlarının maliyyə rəisi, ümumilikdə 10-a yaxın şöbə rəislərinə qarşı DTX cinayət işi qaldırdı. Ortalama 100 milyon dövlət vəsaiti ayrı-ayrı vaxtlarda fərqli maliyyə idarələri tərəfindən mənimsənilib.

Şuşa Bəyannaməsindən sonra Azərbaycan Silahlı Qüvvələri Türkiyə ordusunun mini modelinə keçir. Prosesin əsas hissəsinin tamamlanması fonunda ordunun adı rüşvətlə hallana bilməz. Rüşvət anlayışı Türkiyə Silahlı Qüvvələrinə uzaqdır. Biz də orduda eyni üsulun tətbiqinin şahidi olacağıq. Doğrudur, bəzi səlahiyyətli şəxslər gizli korrupsiyaya əl atmağa çalışacaqlar. Türkiyə ordu modelində əsas məqam rüşvət və korrupsiyadan kənarda qalmaqdır.

Hər kəs törətdiyi hüquq pozuntusunun cavabını verəcək. Müdafiə Nazirliyi sistemində DTX nəzarəti əvvəlki illərə nisbətən həddindən artıq nəzarəti gücləndirib. Silahlı qüvvələrdə zabitlər, komandirlər ürəkləri istədiyi kimi davrana bilməyəcək.

Yeni modelin tətbiqi ilə korrupsiyadan uzaq ordunun yaranacağına inanmalıyıq".

**Aygün Tahir**

# Sabirabadda 17 yaşlı qız ərə verilib

## Polis əməkdaşları yeniyetmənin valideynləri ilə izahedici söhbətlər aparıb



**"Sabirabad rayonunda 17 yaşlı qızın ərə verilməsi faktı ilə bağlı Rayon Polis Şöbəsinin Qaragüney Polis Bölməsinin əməkdaşları tərəfindən bütün tədbirlər icra olunub".**

Bu barədə "Şərq"ə Daxili işlər Nazirliyinin Mətbuat Xidmətinin Şirvan regional qrupunun baş inspektoru polis kapitanı Nizam Həmidov deyib.

O bildirib ki, polis əməkdaşları yeniyetmənin valideynləri ilə izahedici söhbətlər aparıb və qeyd olunan halın hüquqazidd olması onların diqqətinə çatdırılıb:

"Araşdırmalar zamanı qızın 17 yaşının tamam olması məlum olub. Valideynləri isə yalnız nişan mərasiminin keçirildiyini, övladlarının hazırda onlarla birlikdə yaşadığını, yalnız 18 yaşı tamam olduqdan sonra oğlan toyunun keçiriləcəyi bildiriblər".




# Qız uşaqları təhlükədə...

## Ətraf cinayətə meyilli insanlarla doludur

**Paytaxtda manyaklar peyda olub və ağlasığmaz, iyrənc hadisələr törədirlər. Hadisələrdən biri məktəbli, digəri isə tələbə qızlarla bağlıdır. Azərbaycan Dillər Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universiteti yaxınlığında naməlum şəxs dərman almaq adı ilə gənc qızlara yaxınlaşaraq, onların xeyirxahlığından sui-istifadə edir.**

Hadisə barədə informasiya ADU tələbələrinin sosial şəbəkələrdə paylaşım etmələri hesabına tirajlanıb. Tələbə qızların yazdığına görə, yaşlı bir kişi ADU-nun Təbriz küçəsindəki korpusunun yanında dayanaraq, universitetin qız tələbələrinə yaxınlaşır və onlara pulunun dollar olduğunu deyərək, onunla aptekə getmələrini və dərman almasına yardım etmələrini xahiş edir. İddia edilir ki, bir neçə gün əvvəl ADPU tələbəsi olan bir qız həmin şəxsin yalanına inanıb və onunla birlikdə dərman almaq üçün aptekə gedib. Bu hadisədən sonra gənc qız 2-3 gün yoxa çıxıb. Yoxa çıxan tələbənin yoldaşları onun həmin şəxs tərəfindən qaçırıldığını iddia edib. Geri qaytarıldıqdan sonra isə qız intihar edib. Həmin şəxsin yenə eyni yerdə dayanaraq, tələbə qızları aldatmağa davam etdiyi bildirilib.

**Məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev bildirib ki, hadisə ilə bağlı araşdırma aparılır: "Sosial şəbəkələrdə yayılmış iddialardan məlumatlıyıq. Hazırda araşdırma aparılır".**

Digər hadisə isə paytaxtın Nərimanov rayonunda orta məktəbdə baş verib. Məktəbli qızın cinsi qısnamaya məruz qalması barədə avtosfer.az-a həmin məktəblinin atası məlumat verib. Atanın sözlərinə görə, 11 yaşlı qızı dərs bitdikdən sonra məktəbin dəhlizində onun gəlməsini gözləyib: "Mən yolda olarkən həyat yoldaşım zəng edib dedi ki, qızım cinsi qısnamaya məruz qalması ilə bağlı zəng edib, tez özünü məktəbə çatdır. Mən məktəbə çatan vaxt həmin naməlum şəxsi tutdum və polisə təhvil vermək üçün onu zərərsizləşdirməyə çalışdım. Bu zaman ətrafda olan insanlar bizim dava etdiyimizi düşünərək onu əlimdən aldı. Həmin şəxs məktəbin təhlükəsizlik kamerasına düşüb. Həmin şəxs qızımı öncə danışdırmağa başlayıb, daha sonra isə yaxasını açaraq onu cinsi qısnamaya məruz qoyub".

Nərimanov Rayon Polis İdarəsində oktyabrın 27-də rayon ərazisindəki orta məktəblərin birində məktəbliyə qarşı əxlaqsız hərəkətlər edilməsi barədə daxil olan məlumatla əlaqədar Cinayət Məcəlləsinin 153-cü maddəsi (Əxlaqsız hərəkətlər) ilə cinayət işi başlanılıb. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində bu əməli törətməkdə şübhəli bilinən, əvvəllər qəsdən adam öldürmə və quldurluq əməllərinə görə məhkum olunmuş Tərtər rayon sakini Sahil Həsənov müəyyən olunaraq saxlanılıb. Hadisə ilə bağlı hazırda Nərimanov Rayon Polis Şöbəsində araşdırma aparılır. Araşdırmalardan sonra həmin şəxsin əməli törədib-törətmədiyi məlum olacaq.

**"Şərq"ə açıqlamasında psixoloq Elnur Rüstəmov baş vermiş hadisələrin psixoloji aspektlərini təhlil etdi:**

- Bu hadisələri 2 qismə bölə bilərik. Orta məktəbdə baş vermiş hadisə faciəvidir. Bildiyim qədər hadisə ilə bağlı hüquqi müstəvidə iş aparılır. Məncə, biz bu hadisədə məktəbli qızın valideyninə xəbər verməsi məqamına fokuslanmalıyıq. Firkir verin, məktəbli qız təhlükə anında valideyninə zəng edir, onu xəbərdar edir və kömək istəyir. Bu, çox vacib və diqqət edilməli məqamdır. Bu onu göstərir ki, həmin ailədə uşaqla valideyn arasında isti, səmimi münasibətlər mövcuddur. Uşaq bunu bildiyindən, valideynin ona yardım edəcəyinə əmin olduğundan təhlükə anında dərhal valideynini arayır. Psixoloji problemləri olan, cinayətə meyilli insanlar adətən qurbanlarını qorxutmaq, hədə-qorxu gəlməklə əldə etməyə çalışırlar. Məsələn, hədəfə yaxınlaşaraq ona "səsini çıxarsan, öldürərəm, kəsərəm " deyib öz çirkin əməllərini həyata keçirməyə çalışırlar. Bu məqamda insan kömək ala biləcəyi birisinin olduğuna əmindirsə, qışqırır, çığır-bağır salıb yaxınından, ailəsindən, evdən kənardadırsa ətrafdakılardan yardım istəyir.

**Psixoloq: "Hər kəs öz təhlükəsizliyini, psixoloji sağlamlığını qorumalıdır. Diqqətli, ayıq-sayıq olmalıdır. Çünki bu gün müxtəlif psixoloji problemləri olan insanlar var"**

Cinayətə meyillənmiş adam bu halda özü qorxub çəkinə və uzaqlaşa bilir. Amma hədəf susqun qalırsa, təhdidlərdən qorxursa və daha təhlükəlisi - valideyninə xəbər verməkdən çəkinir, hətta qorxursa, belədə onun qurbana çevrilmə ehtimalı daha da artır. Yəni biz yenə də ailədə valideyn-övlad münasibətlərinin normal, isti, səmimi olması, eyni zamanda cəmiyyətin də yardımsevər olması üzərində dayanırıq. Nərimanov rayonundakı orta məktəbdə baş vermiş çirkin hadisə məhz məktəblinin valideyninə xəbər verməsi sayəsində məlum olub. Şəxsən bu məni rahatladır ki, məktəbli valideynindən qorxmayıb, çəkinməyib, ilk olaraq anasına zəng edib, kömək istəyib. Təcrübədən çıxış edərək deyə bilərəm ki, bir çox uşaqlar, yeniyetmələr məhz valideynlərindən çəkindikləri üçün, valideynləri ilə aralarında səmimi münasibətlər olmadığı, "anam, atam bilsə məni danlayacaq, günahı məndə görəcək" kimi səhv düşüncədən, əslində isə valideynin kobud, övladına qarşı inamsız rəftarından doğan düşüncədən çıxış edərək oxşar hadisələr baş verdikdə onları gizlədir, heç kimə demirlər. Bəzən bu cür hadisələr çox sonralar - üzərindən 3-4 il keçdikdə məlum olur. Bütün bu illər ərzində isə uşaq sıxılaraq yaşayır, psixoloji sarsıntı da keçirir. Deməli, valideynlə uşağın dostluğu böyük əhəmiyyət daşıyır. İkinci məsələ, uzun illərdir bizim tövsiyə etdiyimiz məsələdir; orta məktəblərdə cinsi maarifləndirmə ilə bağlı tədbirlər keçirilməli, məlumatlandırma işləri aparılmalıdır. Şagird bədənini - özünü tanımalıdır. Bunun yolları, metodları var. Bu ona görə vacibdir ki, şagird, yeniyetmə özünü tanıyarsa, müdafiə oluna biləcək.

**Tələbə qızlarla bağlı baş vermiş hadisəyə gəlincə, psixoloq burada xalqımızın yardımsevərlik xüsusiyyətindən sui-istifadə edildiyini bildirdi:**

- Uşaq vaxtından hamımızı belə tərbiyə ediblər ki, yaşlı insana kömək et, köməksizə əl tut, yardıma ehtiyacı olana yardım et. Bunlar humanizm prinsipləridir, əlbəttə, xalqımızda da yanımcıllıq hissi daha da güclüdür. Cinayətə meyilli insanlar, tüfeyli həyat tərzi keçirənlər də insanların duyğularından "məharətlə" istifadə edir. Cəmiyyət artıq dəqiq bilir ki, əl açıb dilənənlər, "körpəsi üçün", "xəstə uşağı üçün" pul istəyənlər yalançıdır, o pulu uşağa, körpəyə görə istəmir. Amma o fırıldaqçıların yapışdığı dəyər bizi tərpədir. İnsanların duyğularına təsir edirlər çünki. İnsanlar həqiqəti bildikləri halda yenə də duyğularına yenilib bu şəxslərə pul verirlər. Bunu da "başıma sadağa, qoy məndən çıxsın", "istəyənin bir üzü qaradır, verməyənin iki üzü" kimi yenə də duyğusal davranış tərzinə bağlayırlar. Burda diqqət etməli olduğumuz məqam nədir: biz XX əsrdən tamam fərqli, yeni bir dövrdə yaşayırıq. İnsanlar arasındakı ünsiyyət fərqli formalarda tənzimlənir artıq. Hər kəs öz təhlükəsizliyini, psixoloji sağlamlığını qorumalıdır. Diqqətli, ayıq-sayıq olmalıdır. Çünki bu gün müxtəlif psixoloji problemləri olan insanlar var. Onların hədəfinə tuş gəlmək və qurbana çevrilməmək üçün özümüzü qorumağı bacarmalıyıq. Hüquq-mühafizə orqanları hüquqi müstəvidə işini görür. Amma hədəfə çevrilən insanın yanında polis həmişə olmaya bilər. Tələbə qızlar əgər həqiqətən də kiminsə hədəfinə çevrilibsə, deməli, onlar ayıq-sayıqlıqlarını itiriblər. Tələbə qıza edilən təklif qarşılığında o mütləq kiminləsə getməliydi. Tanımadığı şəxslə heç bir halda təkbaşına harasa getməməliydi. Tələbə yoldaşları da maraqlanmalıydılar ki, o hara gedir, niyə gedir? Müşahidə etməliydilər, onu çəkindirməliydilər, yaxud da onu tək buraxmamalıydılar. Müasir gənclərin belə ehtiyatsız, düşünülməmiş hərəkətləri təəssüf doğurur. Deməli, təkcə orta məktəblərdə deyil, ali məktəblərdə də müasir dövrün tələbləri və reallıqlar barədə maarifləndirməyə ehtiyac var. Son zamanlar narkomaniyanın artması da bunu vacib edir. Məktəblilərə müxtəlif aldadıcı təkliflər edilirsə gənclərə də edilə bilər. Hamı, hər kəs ayıq olmalıdır. Təhlükə anında hara, kimə müraciət edəcəyini bilməlidir. Bu həm polisdir, həm təhsil müəssisəsi rəhbərliyi, həm də ailə. İstər uşaq olsun, istər yeniyetmə, istərsə də gənc, yardımı və dəstəyi ilk növbədə ailəsindən alacağına əmin olmalıdır.

**Onlar indi də ali təhsil müəssisələrinə, orta məktəblərə ayaq açıblar**

**Məlahət Rzayeva**

# Ölüm faktı aşkarlanmayıb

## Son sutkada 11 yoluxma faktı qeydə alınıb



**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 11 yoluxma faktı qeydə alınıb, 4 nəfər müalicə olunaraq sağalıb. İnfeksiyadan ölüm faktı aşkarlanmayıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, indiyədək ölkədə ümumilikdə 823 min 258 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 812 min 986 nəfər müalicə olunaraq sağalıb, 9 min 944 nəfər vəfat edib. Aktiv xəstə sayı 328 nəfərdir.

*Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1020, bu günə qədər isə ümumilikdə 7 milyon 320 min 320 test icra olunub.*

# Qobustanda iki gün ard-arda zəlzələ baş verib

## Qurban Yetirmişli: "Yaxın zamanalar üçün Azərbaycanda dağıdıcı, katastrofik zəlzələ ehtimalı yoxdur"



**Qobustanda iki gün ard-arda zəlzələ baş verib. Onlardan biri bəzi həssas insalar arasında hiss olunan dərəcədə olub.**

Bu, seysmik aktivliyin artmasının göstəricisidirmi? Ümumiyyətlə, Qobustan Bakıya yaxın rayonlardan biridir. Paytaxtda çoxmərtəbəli binaların sayının günü-gündən artdığını əsas götürərək, əhalinin təşvişə düşməsinə səbəb varmı? Cavabını mütəxəssisdən soruşduq. "Xəzər Xəbər" məlumat verir ki, bu gün səhər saat 08-08 radələrində Pirqulu stansiyasından 44 km cənubda, Qobustan rayonu ərazisində növbəti dəfə zəlzələ olub. Paytaxta bu qədər yaxın bir məsafədə iki gün ard- arda zəlzələnin baş verməsi narahatçılığa əsas yaradırmı? Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli bildirdi ki, dünən axşam baş verən zəlzələ bəzi sakinlər tərəfindən hiss edilsə də, bu gün səhər saatlarında baş verən zəlzələ ümumiyyətlə hiss olunmayıb. Qurban Yetirmişli dedi ki, Azərbaycan seysmogen bölgədir. Ona görə də burda hər gün təkanaların baş verməsi təbii haldır. Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru bildirdi ki, ölkədə yaxın zamanlar üçün dağıdıcı, katastrofik zəlzələ ehtimalı yoxdur.

# Bakıda metrodan istifadə edənlərin sayı kəskin artıb



**Bakıda metrodan istifadə edənlərin sayı kəskin artıb.**

Dövlət Statistika Komitəsinin hesabatında qeyd edilir ki, 2022-ci ilin yanvar-sentyabr aylarında Bakıda metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 3,8 dəfə artaraq 146,7 milyon nəfər olub. Ümumilikdə, qeyd olunan müddət ərzində Azərbaycanda nəqliyyat vasitələrindən istifadə edən sərnişinlərin 12,6 faizi metrodan istifadə edib.

ŞƏRQ Müstəqil ictimai-siyasi qəzet 1 noyabr 2022-ci il (çərşənbə axşamı)


# HÜSEYN CAVİD ƏFƏNDİ - 140



**İlqar Cəmiloğlu İmamverdiyev**
**Sənətşünaslıq Elmləri Doktoru, Gaziantep Universiteti Türk Musiqisi Dövlət Konservatoriyasının Professoru.Türk Xalq Musiqisinə Xidmət Mükafatçısı**



# Hasan müəllimimdən iki xatirə

**Möhtərəm Prezidentimiz İlham Heydər oğlu Əliyevin Azərbaycan ədəbiyyatının görkəmli filosof şairi və dramaturq övladı Hüseyn Cavid Əfəndinin anadan olmasının 140-cı ildönümünün qeyd edilməsi haqqında imzaladığı sərəncam, böyük söz ustadımızın zəngin yaradıcılıq irsinə və möhtəşəm şəxsiyyətinə olan ülvi məhəbbətinin, hörmət və ehtiramının göstərgəsidir.**

Bu münasibətlə də tanınmış elm xadimlərimiz və sənət adamlarımız 2022-ci ildə maraqlı məqalələrlə və diqqətəşayan dövlət tədbirləri ilə ustadımızın xatirəsini anmaqla bir çox gizli mətləbləri və dəlilləri də aydınlığa çıxartmaqdadırlar. Bu əlamətdar günlər məni də təşviq etdi ki, iki unudulmaz xatirəmi də mənəvi bir borç olaraq xalqımıza ərmağan edəm. Öncəliklə ustadlarımıza rəhmət olsun!

Böyük şairimiz Hüseyn Cavid Əfəndinin yubileyi ərəfəsindəki bu mübarək günlərdə, bir zamanlar tələbəsi olmuş, əslən Anadoludan olan və Qədim Gəncə torpağında məskunlaşmış (üç müharibənin iştirakcısı 1941-45 savaşı, Fin müharibəsi və rus yapon müharibəsi), qazi övladımız Hasan müəllimin ixtiyar çağında atam Cəmil Əkbərə məhdud səslə söylədiyi bir əhvalata 1971-ci ildə 16 yaşımda ikən, evində riyaziyyat fənnindən dərs aldığım zaman təsadüfən qulaq müsafiri oldum.

## İLK XATİRƏ

Günlərin birində verdiyi bir tapşırığı həll etmək məqsədi ilə mən diqqətimi toplayıb məsələni çözmək üçün fikrimi cəmləşdirdiyim əsnada, Hasan müəllim Cavid Əfəndinin Filarmoniyada keçirilən yekun məhkəməsi barədə son ifadəsini atam Cəmil Əkbərə asta səslə nəql etməyə başladı. Qeyri-iradi olaraq fikrim tədricən yayındı və mənim diqqətim o söhbətə yönəldi. Hafizəmdə qalmış o hüznlü hekayəti dəyərli oxucularımıza çatdırmağı Hüseyn Cavid Əfəndi ruhuna hörmət əlaməti olaraq qəbul edirəm. Ustadlara rəhmət olsun. Amin!

*Hasan müəllim sözə belə başladı:*

- Cavid Əfəndinin məhkəmə prosesində biz yeniyetmə gənclər idik, bir neçə yoldaşımla Filarmoniyanın kənarındakı münasib ağaclara dırmaşıb məhkəməni uzaqdan seyr edirdik. O dönəmdə bəzi "yazıçı" və "şairlər" Cavid Əfəndinin yaradıcılığına tənqidi münasibət göstərir, onun əsərlərindən pantürkist ab-havası gəldiyini həyasızcasına üzünə deyib, bəzi siyasi məsələlərdə isə nahaqdan şər-böhtan atırdılar. Bu haqsızlığa tab etməyən Hüseyn Cavidə, nəhayət ki, məhkəmənin qərarı ilə son söz verildi. Cavid Əfəndi onlara üzünü tutub qısa bir hekayət söyləməklə o üzdəniraq tənqidçilərə layiqli cavabını verəcəyini onların diqqətinə çatdırdı:

- Payız fəslinin bir günündə erməni cənnətə düşməyin yolunu-yolağını öyrənmək məqsədi ilə erkəndən qalxıb keşişdən məslәhət almaq üçün kilsəyə gedir. Keşiş təşrif gətirmiş ermәninin məramını bilib, mətləbini anladıqdan sonra deyir:

- Bir müslümana sən üç şey dedirdə bilsən cənnətin ortasındasan.

Erməni tez-tələsik deyir:

- Mən nə dedirtməliyəm?

Keşiş bu sözün müqabilində fikrini belə izhar edir:

- Əgər müsəlmana dedirdə bilsən ki, "Kilsə-məsciddən", "İncil-Qurandan", "Nırnı-halvadan yaxşıdır" o zaman özünü cənnətə girmiş bil.

Erməni keşişə minnətdarlıq etdikdən sonra böyük inamla tələsik evinə dönür. Yaxınlaşanda təsadüfən evinin yaxınlığında fəqir bir müslümanın boş-bekar veyil-veyil gəzməsi diqqətini çəkir. Məsələnin nə yerdə olduğunu anlayıb ona yanaşır. İş axtardığını biləndə, erməni daxilən sevinir və özünü o yerə qoymayıb onu öz həyətinə aparır. Torpağı şumlamağın əvəzində zəhmət haqqı olaraq pul verəcəyini vəd edir. Kasıb sevincək, beli əlinə alıb ermәninin həyət yerini şər qarışana kimi belləyib bitirir. Erməni bu zəhmətin müqabilində razılaşdığı məzənnəni verib deyir:

- Ay müslüman "qardaş", de ki, "kilsə məsciddən yaxşıdır". Müslüman heç gözləmədiyi, xəyalına belə gətirmədiyi bu qəribə sözdən ani olaraq diksinir. Bir qədər duruxub fikirə gedir. Ürəyində götür-qoy edib özü-özlüyündə belə deyir:

- Hər ikisi də Allahın evidir. Noolar, qoy deyim. Və ermәninin istədiyi kimi o sözü təkrar edir.

Erməni sevincini büruzə verməyib müslümana belə deyir:

- Nə vaxt pulun qurtarsa yenə gəl. Bəzi görüləsi işlərim yenə var.

Müslüman pulu alıb sevinmiş halda özünü ailəsinə çatdırmağa tələsir. Bu minvalla bir neçə gün keçmiş, pulu xərcləyib qurtarandan sonra erməninin sözü yadına düşür. Həmin evə yenə gəlir. Ev sahibi bu dəfə müslümana, ağacın diblərini belləyib yumşaltmağı və həyətdəki meyvə ağaclarının bəzi qurumuş budaqlarını budamağı əmr edir.

*Müslüman bu dəfə də həvəslə erməninin göstərişini yerinə yetirir. İşin bitdiyini görən erməni bu dəfə də əlindəki pulu müslümana göstərib belə deyir:*

- A müslüman "qardaş", de ki, "İncil Qurandan yaxşıdır". Müslüman bir qədər fikrə dalıb, xəyallar aləmində öz-özünə deyir:

- Hər ikisi Allahın kitabıdır. Noolar, qoy deyim. Və ermәninin arzuladığı sözü təkrar edir.

Ev sahibi cənnətə yaxınlaşdığının sevincini yaşayaraq məzənnəni bir qədər artıqlaması ilə verib müslümanı razı salır.

Aradan daha bir müddət keçir. Müslüman pulu xərcləyib qurtardıqdan sonra yenə üz tutur erməni yaşadığı səmtə. Həyətə daxil olanda erməni həyət-bacada səliqə-səhman yaratmasını, süpürülüb yıryığış etməsinə göstəriş verir.

Müslüman tez-tələsik əlinə süpürgə alıb həyət-bacanı süpürür, xəzəlləri daşıyıb bir yana yığıb, qısa bir vaxtda səliqə-səhman yaradır. İşini bitirdikdə pulunu almaq üçün ev sahibinə yaxınlaşır. Erməni xahiş edir ki, "bir qədər dincəl, çörək ye, sonra gedərsən".

Müslüman tərəddüd etsə də çar-naçar evə daxil olur. Erməni xanımına işarət edib yeməyi gətirməsinin göstərişini verir.

Müslüman ilk dəfə gördüyü yeməyin dadına baxarkən anlayır ki, bu yemək bir qəribədir. Sən demə, bu yemək ermənilərin müqəddəs hesab etdikləri yağsız, şəkərsiz, duzsuz olan "nırnı"dır.

Aclığını basdırmaq üçün birtəhər də olsa yeməyə başlayır. Erməni ürəyində sevinir ki, keşişin tövsiyə etdiyi üç mərhələnin sonuncusuna gəlib çatıb. Elə bu məqamı fürsət bilib fəqir müslümana yaxınlaşıb ona belə deyir:

- A müslüman "qardaş", de ki, "nırnı halvadan yaxşıdır". Bu sözü eşidən müslüman daha dözə bilməyib əsəbi halda ayağa qalxıb belə cavab verir:

- Ay erməni, dedin ki, "Kilsə məsciddən yaxşıdır", mən razı oldum. İkinci dəfə dedin ki, "İncil Qurandan yaxşıdır", mən ona da razı oldum. Amma nırnı heç vaxt halvadan yaxşı ola bilməz" - deyib, arxasına dönüb baxmadan əsəbi halda oradan uzaqlaşır.

*Bu hekayəni anlatdıqdan sonra Cavid Əfəndi üzünü o bədxah niyyətli, "yazıçılara" və "şairlərə" üz tutub belə dedi:*

- Mənim yazdığım əsərlər "halva" kimidir, həm yağı, həm şəkəri, həm duzu var. Sizin yazdığınız isə nə yazıq ki, o nırnı kimidir, nə dadı var, nə də tamı var.

Bu son nitqindən sonra da Cavid Əfəndini ömürlük gedər-gəlməzə, Sibirə sürgün edirlər.

## İKİNCİ XATİRƏ

Dərsə davam etdiyim günlərin birində Hasan müəllim yaralı bir türk əsgəri ilə bağlı kövrək xatirəni mənə söylədiyini də heç unuda bilmirəm. Hasan müəllim belə nəql edirdi:

- Müharibənin qanlı-qadalı günlərindən birində bədənindən qəlpə yarası almış bir türk əsgərini ağır vəziyyətdə hərbi hospitala çatdırırlar. Təcili əməliyyat olunmasına ehtiyac var idi. Yoxsa qan itirmədən dünyasını dəyişə bilərdi. Türk əsgərinin həyatı təhlükə qarşısında idi. Lakin narkozun tapılmaması onun həyatını xilas etməyə mane olurdu. Bu vəziyyəti görən yaralı türk əsgər ağır-ağır nəfəs ala-ala asta bir səslə cərrahdan xahiş edir ki, hər hansı bir musiqi alətində çalmağı bacaran bir kimsəni tapıb gətirsələr, narkoza heç ehtiyac qalmaz. Tibb bacısı bu sözü eşidib hərbi hospitalda müalicə alan döyüşçülərdən birinin əslən türk olduğunu və mondolinada çala bildiyini həkimə xəbər edir. Hərbi cərrahın əmrinə əsasən çox sayda yaralı xəstələr arasında həmin şəxs qısa bir zamanda axtarılıb tapılır və musiqi aləti ilə birgə həkimin hüzuruna gətirilir. Həmin şəxs əməliyyat masasına yaxınlaşıb türk əsgərini bu halda görəndə vəziyyətin çox ağır olduğunu anlayır. Cərrahi əməliyyat masasında ağır-ağır nəfəs alıb əlindəki mondolinaya heyrətlər içində baxıb, acizanə bir səslə Anadoluda məşhur olan bir çox xalq musiqilərini çalıb-oxumağını ondan xahiş edir. Musiqiçi əsgər pəjmürdə halda ölüm-qalım savaşı verən yaralı türk oğlunun xahişini nəzərə alıb əməliyyat masasının kənarına yaxın bir yerdə əyləşib öncə "Üsgüdara gedər ikən" sözləri ilə başlayan "Katibim" adlı qədim xalq mahnısını çalıb ahəstə səslə türk şivəsi ilə oxumağa başladığı zaman cərrah-həkim də xəstəsinin vücuduna saplanmış qəlpəni narkoz olmadan neştərlə kəsib çıxartmağa çalışır:

**"Üsküdara gider iken aldı da bir yağmur,**
**Katibimin setresi uzun eteği çamur.**
**Katip uykudan uyanmış gözleri mahmur,**
**Katip benim ben katibin el ne karışır.**
**Katibime kolalı da gömlek ne güzel yaraşır.**
**Üsküdara gider iken bir mendil buldum,**
**Mendilimin içine de lokum doldurdum.**
**Katibimi arar iken yanımda buldum,**
**Katip benim, ben katibin el ne karışır**
**Katibime kolalı da gömlek ne güzel yaraşır**

"Katibim" mahnısını ifa edib bitirdikdən sonra digər bir havaya keçir. Yəməndə vuruşub şəhid olan qeyrətli, məğrur türk əsgərlərinin əziz xatirəsinə yaranmış "Burası Muşdur" sözləriylə başlayan Yəmən Türküsü adlı "ağını" həzin-həzin çalıb bu sözlərlə ifa edir:

**"Havada bulut yok bu ne dumandır,**
**Mahlede ölen yok bu ne figandır.**
**Şu Yemen elleri ne de yamandır,**
**Ah o Yemendir, gülü çemendir,**
**Giden gelmiyor acep nedendir,**
**Burası Muştur, yolu yokuştur,**
**Giden gelmiyor acep nedendir**
**Kışlanın önünde çalınır sazlar,**
**Ayağım yalınayak yüreğim sızlar,**
**Yemene gidene ağlıyor kızlar,**
**Ah o Yemendir, gülü çemendir,**
**Giden gelmiyor acep nedendir.**
**Burası Muştur, yolu yokuştur,**
**Giden gelmiyor, acep ne iştir".**

Daha sonra bir çox sevilən Anadolu xalq türkülərindən nümunələri çalıb ahəstə səslə ifa edir. Gözü yumulu halda musiqinin sədalarına dinşək kəsilən və özünü tamamilə unudan yaralı türk əsgəri "anestezi" olmadan melodiyanın ecazgar sədaları ağuşunda sanki narkoz almış kimi sakitcə dayanıb, şiddətli ağrılara tab gətirə bilir. Bu minvalla cərrah-həkim, narkoz vermədən xəstəsini əməliyyat edib vücudundan qəlpəni ehmalca çıxarmağa nail olur. Mondolinanın qəmli sədaları müşayiətində əməliyyat beləcə uğurla tamamlanmış oldu. Nəhayət, yaralı türk əsgəri həkimin peşəkarlığı, bacarığı və musiqinin sehirli sədalarının təsiredici qüvvəsi sayəsində son anda ölümün pəncəsindən xilas ola bildi.

Hasan müəllim bu əhvalatı söylədikcə ovqatının dəyişdiyini, kövrəldiyini mənən sezirdim. Hiss edirdim ki, həmin yaralı türk əsgərinin baş ucunda mondolinası ilə çalıb-söyləyən məhz Hasan müəllimin özü imiş. Çünki ilk dəfə "Katibim" türküsünü məhz Hasan müəllimin çalıb söylədiyini 1971-ci ildə evində dərs aldığım bir mübarək gündə dinləmişəm. Hətta məqamı gələndə Hüseyn Cavid Əfəndinin şeirlərini türk şivəsi ilə necə gözəl ahəstəcə əzbərdən deməsini necə unutmaq olar? Təbii ki, ömrümə həkk olunmuş bu unudulmaz gözəl anlar indi də gözlərimin önündədir. Yaralı türk əsgəri ilə bağlı mənə söylədiyi bu kövrək əhvalatı pünhan saxlamağın da bir mənasının olduğunu çox sonralar özüm üçün dərk etdim.

Yeniyetmə çağlarımda Hasan müəllimin bu əhvalatı mənə danışması təbii ki, türk insanının dözümlülüyünü, məğrurluğunu, musiqiyə olan ecazgar sevgisinin, vurğunluğunun mücəssəməsi kimi gözümdə ucaltdı. Həyatda olmuş bu gerçək əhvalatdan sonra özüm də bilmədən türk insanına hörmət-ehtiramım qəlbimi ram, ruhumu fəth etdi. Çünki Türkiyəyə olan ülvi məhəbbətimin yaranmasının təməlini məhz Hasan müəllim adlı bu mübarək insan hələ orta məktəb illərində təhsil aldığım dönəmdə atmış oldu. Bu məhəbbətimin nəticəsi idi ki, Türkiyə və türk insanlarına olan heyrətim, marağım, məhəbbətim mərhələ-mərhələ bu gün belə durmadan artmaqdadır. Ömrümə həkk olan o unudulmaz xatirələrdən 51 il zaman keçməsinə baxmayaraq bir məsələ hələ də məni düşündürməkdədir. Səmimiyyətimlə etiraf edirəm ki, Sovetlər İttifaqının bir zaman dağılacağını öncədən hiss etmiş, bilmiş olsaydım, təbii ki, Hasan müəllimin ailəsinin Türkiyənin hansı vilayətindən, hansı şəhərindən və ya kəndindən olduğunu öyrənə bilərdim. Təəssüf ki, o zaman bu sual heç xəyalıma və ağlıma belə gələ bilməzdi.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış;

**"Böyük Qayıdış"ın astanasındayıq. İşğaldan azad olan yaşayış məntəqələrimizdə görüləcək işlərin baş planı hazır olmaqla yanaşı uğurla icra edilməsinə başlanıb. Hazırda düşməndən azad edilən ərazilərimizdə genişmiqyaslı tikinti, bərpa-quruculuq işləri aparılır. Azərbaycanın 30 ilə yaxın bir dövr ərzində işğal altında qalan torpaqlarında indi bir coşğunluq yaşanır, yeni layihələrin icrasına start verilir.**

Hazırda Azərbaycan dövlətinin qarşısında işğaldan azad edilmiş ərazilərin bərpasını, davamlı inkişafını təmin etmək kimi vəzifələr durur. İşğaldan azad edilmiş ərazilərdə irimiqyaslı infrastruktur layihələri həyata keçirilir. Aparılan yenidənqurma işlərində "ağıllı kənd", "ağıllı şəhər" layihələrinə daha çox üstünlük verilir. Artıq 70-ə yaxın ailə Zəngilan rayonunun Ağalı kəndində bu konsepsiya əsasında inşa olunmuş mənzillərində yaşayır. Ümumən, məcburi köçkünlərin "Böyük Qayıdışı" Azərbaycanın 2030-cu ilədək əldə olunacaq sosial-iqtisadi inkişafının beş milli prioritetindən biri kimi müəyyən edilib. Bir müddət öncə Ağdamda, Cəbrayılda, Zəngilanda mühüm infrastruktur layihələrinin əsası qoyuldu. Gələn ildən sosial təsisatlar - yəni həm şəhərin mərkəzi, həm də kəndləri ilə bağlı bərpa və yenidənqurma işlərinin, "Böyük Qayıdış"ın baş verməsi, tam mənalı həyatın azad olunmuş ərazilərə qayıtması üçün tələb olunan əsas layihələrə start veriləcək. Təbii ki, "Böyük Qayıdış"ın ən təməl prinsipi bölgədə zəruri iqtisadi infrastrukturun qurulmasıdır. Azad edilmiş rayonlarda biznes üçün ciddi güzəştlər tətbiq olunacaq. İşğaldan azad edilmiş ərazilərdə yaradılmış Ağdam Sənaye Parkı və Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının rezidentləri ölkənin bütün sənaye parklarına şamil olan güzəştlərdən istifadə etməklə yanaşı, sırf azad edilmiş ərazilər üçün nəzərdə tutulmuş güzəşt və imtiyazlardan da yararlana biləcəklər. Bu güzəştlər işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslərə şamil olunacaq. Güzəştlər paketində sosial, vergi və gömrük məsələləri yer alacaq. Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra başladığı sürətli quruculuq işlərində beynəlxalq təcrübədən ciddi yararlanır. Bu istiqamətdə müxtəlif ölkələrin bərpa təcrübəsi öyrənilir, beynəlxalq təşkilatlarla əməkdaşlıq edilir. Beynəlxalq təcrübədə bərpa prosesi, adətən, 4-5 mərhələ üzrə keçirilir. Sosial və iqtisadi infrastruktur paralel olaraq qurulur. Qarşıda duran hədəflərdən biri iqtisadiyyatın şaxələndirilməsi, dayanıqlı sosial inkişafın təmin olunmasıdır. Bu istiqamətdə müvafiq fərmanla milli prioritetlər təsdiq olunub. Təbii ki, buna nail olmaq üçün insanlara iş şəraiti yaradılmalıdır. Bu istiqamətdə əsas rol azad edilmiş ərazilərdə yaradılmış sənaye parklarının üzərinə düşəcək. İşğaldan azad olunmuş ərazilər təbii resurslarla zəngin



# "Qarabağda və Şərqi Zəngəzurda daha çox aqroparklar yaradılacaq"

## Vüqar Bayramov: "Bu aqroparklar imkan verəcək ki, daha çox kənd təsərrüfatı məhsullarının istehsalına nail olmaq mümkün olsun"

ərazilərdir. İstər tranzit baxımından, istər təbii ehtiyatlar baxımından. Bərpa prosesinə təkan vermək, bu iqtisadi inkişafın, iqtisadi canlandırmanın sürətləndirilməsi üçün həmin təbii resursların itqtisadi dövriyyəyə cəlb edilməsi üçün artıq müəyyən addımlar atılıb. Qarabağın iqtisadi dirçəlişi üçün ən mühüm layihələrdən biri də heç şübhəsiz aqroparkların salınmasıdır. Artıq Zəngilanda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışı baş tutub. Açılışı Azərbaycan dövlət başçısı İlham Əliyev və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan ediblər. Dövlət başçılarına kompleks barədə məlumat verilib. Qeyd olunub ki, türk və azərbaycanlı sərmayədarlar tərəfindən Zəngilanda həyata keçiriləcək "Dost Aqropark" layihəsi üç mərhələdə icra olunacaq. Bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq. Layihə başa çatdıqda 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq. Bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan kənd təsərrüfatı anbarı sistemi inşa ediləcək. Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcək. "Dost Aqropark" kompleksində ağıllı kənd təsərrüfatı texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulacaq.

Aqropark tam işə düşdükdən sonra burada 500 nəfərə iş imkanı yaradılacaq. Vurğulanıb ki, layihənin birinci mərhələsində inzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, üzgüçülük hovuzu, xidməti heyətin yaşayışı üçün binalar tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı həyata keçirilib. Hər iki prezidentin iştirakı ilə ötən il əkin aparılan buğda və arpanın biçini başa çatdırılıb. Diqqətə çatdırılıb ki, "Dost Aqropark"ın ikinci və üçüncü mərhələləri üzrə işlər də sürətlə davam etdiriləcək. Layihənin bütün mərhələlərinin başa çatdırılması nəticəsində 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan anbar inşa ediləcək. Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcək. Qarabağda istehsal olunan məhsulların "Made in Qarabağ" brendi ilə dünya bazarına çıxarılması üçün "Aqro Market" də qurulacaq. Qeyd edək ki, "Dost Aqropark" türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir.

Ağıllı kənd təsərrüfatı texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunacağı "Dost Aqropark" ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Burada ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon dollar dəyərində sərmayə qoyulacaq. Kompleks Azərbaycanın və Türkiyənin ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək.

Məlumat üçün bildirək ki, yaxın vaxtlarda işğaldan azad edilmiş ərazilərdə bir və yaxud bir neçə aqroparkın yaradılması nəzərdə tutulur. Hazırda 33 rayonda layihə dəyəri 2,3 milyard manat olan 51 aqropark var. Yevlax və Sabirabaddakı aqroparkları dövlət yaradıb, digər aqroparklar isə özəldir. Aqroparkların 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq, 2-i isə emal sənayesi üzrə ixtisaslaşıb. 44 aqropark artıq fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə və tikinti işləri aparılır. Məlumata görə, indiyədək 25 aqroparka 184 milyon manat güzəştli kredit ayrılıb, onlardan 26-na investisiya təşviqi sənədi verilib ki, bunun nəticəsində sahibkarlar texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 39,8 milyon manat vəsaitə qənaət edib. Hazırda aqroparklarda ümumi olaraq 4 500-dək daimi işçi, 6 300-dən çox isə mövsümü işçi çalışır.

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə açıqlamasında bildirib ki, işğaldan azad edilmiş ərazilərdə aqrar sektorun inkişafı, xüsusən ərzaq məhsullarına olan tələbin daha çox yerli istehsal hesabına ödənilməsi əsas prioritetlərdən biridir. Deputat vurğulayıb ki, Qarabağda və Şərqi Zəngəzurda daha çox aqroparkların yaradılması nəzərdə tutulur:** "Türkiyə ilə birlikdə yaradılan aqropark nümunəvidir. Həmin aqroparkada sadəcə əkinçilik və meyvəçilik deyil, eləcə də heyvandarlıq istiqamətində fəaliyyətin genişləndirilməsi və istehsal edilən məhsulların daxili və xarici bazara çıxarılması nəzərdə tutulur. Aqroparklar Qarabağda və Şərqi Zəngəzurda kənd təsərrüfatının inkişafı baxımından vacibdir. Bu aqroparklar imkan verəcək ki, daha çox kənd təsərrüfatı məhsullarının istehsalına nail olmaq mümkün olsun. Eyni zamanda Qarabağın aqrar potensialından daha yaxından istifadə olunsun. Nəzərə alaq ki, Qarabağ torpaqlarının əhəmiyyətli hissəsi məhsuldar torpaqlardır. Bu da kənd təsərrüfatı, xüsusən əkinçilik və bitkiçiliyin inkişafı üçün xeyli ciddi zəmin və imkanlar yaradır. Aqroparklar bu potensialın reallaşmasına xüsusi töhfə verəcək. Yeni iş yerlərinin açılmasına və ixtisaslı kadrların işlə təmin olunmasına dəstək olacaq. Nəticə etibarı ilə növbəti illərdə kənd təsərrüfatı məhsulları ilə bağlı tələbin ödənilməsində Qarabağın rolunun artmasının şahidi olacağıq".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# “Öncə kurikulumun mahiyyətini anlamaq lazımdır”

## Kamran Əsədov: “Hazırda müvafiq yeni dərs vəsaitləri və tədris-metodik vasitələrin hazırlanmasına böyük ehtiyac var”

**“Elmlə bağlı savadlılıq səviyyəsini mümkün qədər artırmalıyıq. Bizim şagirdlərimiz elmi savadlılığa malik olmalı və bu səpkidə dəyişikliklər baş verməlidir”. Bunu Elm və təhsil naziri Emin Əmrullayev deyib. Nazir bildirib ki, yerli kurikulumlarla bağlı islahatlar aparılmalı və bunun vasitəsilə araşdırma kampaniyasını icra etməliyik:**

”Ənənəvi tədqiqat institutları, milli akademiya formatında fəaliyyət göstərən təsisatların gənc universitetlərlə əlaqə qurmalarına çalışırıq. Qara qızılın insan kapitalına çevrilməsi devizi ilə gənclər üçün fürsətlər yaradılıb”.

**Təhsil eksperti Kamran Əsədovun ”Şərq”ə açıqlamasında deyib ki, təhsilin tarixinə nəzər saldıqda bütün dövrlərdə təhsil sistemində dəyişikliklər olanda uzun zaman çərçivəsində keyfiyyətə təsir edib. Müasir vaxtda kurikulumun bir çox ölkələrdə, xüsusən də ölkəmizdə daha çox keyfiyyətə təsir etmədiyinin bir çox səbəbləri olduğunu düşünürəm:** ”Təhsil verənlərin bu metoda inanmaması, təhsilalanların - yəni şagirdlərin kurikulumu ad olaraq eşitməsi, şəhər və kəndlərdə kurikulumun tətbiqində ümumi bir proqramın icra edilməsi, terminlərin daha da anlaşıqlı formada olmaması, təhsilverənlərin müxtəlif yaş qrupunda olması və məktəblərdə İKT-nin zəif təminatıdır”.

”Bəs hansı addımlar atılmalıdır” sualına gəldikdə isə ekspert deyib ki, təhsilverənlərə təlim vermək əvəzinə onların metodları necə tətbiq edə biləcəkləri barədə debatlar vasitəsilə praktiki dərslər təşkil etdikdən sonra tətbiqlərini izləmək lazımdır.

Şagirdlərə anlaşıqlı bir formada kurikulumda olan terminləri anladaraq, bu metod vasitəsilə onların təhsil sahəsində qazana biləcəyi uğurlara inandırmaq lazımdır.

Şəhər və kəndlərdə fərqli metodlar tətbiq edərək, fərqli tələblər olmalıdır: ”Terminləri daha anlaşıqlı mənimsətmək üçün nümunəvi dərslər təhsilverənlərə göstərilməlidir. Müəllimləri təlimlərə cəlb edən zaman yaş fərqləri nəzərə alınmalıdır. (40+ yaşlı müəllimlərin əksəriyyəti təlimlərin bir hissəsini gileylənibləр ki, o da keyfiyyətə mənfi təsir edib). Və ən əsası məktəblərin İKT bazası güclənməsi mütləqdir. Azərbaycanda məktəbəqədər təhsil səviyyəsini də nəzərə alsaq, artıq 12 illik təhsil sisteminə keçdiyimizi deyə bilərik. Kurikulumun tətbiqində bizim əsas problemimiz budur ki, biz cəmiyyət olaraq dəyişikliyə və yeniliyə o qədər də yaxşı baxmırıq, isti yanaşmırıq. Bizdə kurikulumun tətbiqi o zaman keyfiyyətli olacaq ki, biz təhsilin tərəflərinə (müəllim, şagird və valideyn) bu dəyişikliyin və təhsil proqramının faydalı və gərəkli olduğunu qəbul etdirə biləcəyik. Bunun üçün tərəfləri bu dəyişikliyə hazırlamaq lazım idi”.

**K.Əsədovun sözlərinə görə, məktəb mühitində kurikulumun səmərəli təmin olunması üçün məktəblərdə dəyişən dünyanın tələblərinə cavab verən müəllim heyətinin olması çox vacibdir. Müəllimlər şagirdlərdə situasiyadan irəli gələn və qarşısında duran hər hansı konkret məsələni həyata keçirmək üçün sərf etdiyi bacarıqları formalaşdırmalıdır:** ”Vəziyyətdən qaynaqlanan tələblərə cavab vermək üçün əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək onun bacarığıdır. Həmçinin müəyyən funksiyaların müvəffəqiyyətli icrası üçün zəruri olan bilik, bacarıq, müvafiq təcrübə və şəxsi keyfiyyətlərin aşılanması əsasdır. Şagirdin dərsi qavraması üçün mütləq bilikdən əlavə, bacarıqlara da ehtiyacı var. Bilik, bacarıq, vərdiş, dəyər və keyfiyyət tədris prosesinin qarşısında duran əsas vəzifədir. Bu kompetensiyanın formalaşması üçün şagird müəllimin qoyduğu suallara cavab tapmağı öyrənməlidir. Bu, şagirddən fəal, yaradıcı iş, alınmış məlumatı təhlil etmək bacarığı tələb edir. Bunun üçün müəllim dərs keçərkən həmişə problemli situasiya yaratmalıdır. Bu isə şagirdi dərsi düşünülmüş şəkildə qavramağa, yaradıcılığını inkişaf etdirməyə məcbur edir. Yaşadığımız dövrdə 21-ci əsr müəlliminin ən böyük məsuliyyətinə diqqət yetirilir, müəllimin savadlılığının, yeni pedaqoji texnologiyalardan istifadə etmək bacarığının, ünsiyyət qabiliyyətinin, kompüterdən istifadə etmək bacarığının, yaradıcı təfəkkürdən törəyən bilikləri bir-biri ilə əlaqələndirərək yeni bir bilik yaratma qabiliyyətinin, müəllim-şagird ünsiyyətini ən gözəl formada qura bilmək bacarığının olması ön planda durur. Bilik bacarığını formalaşdırmaq üçün şagirdin özü və onu əhatə edən aləm və aləmin amilləri haqqında informasiyadır. Biliklərə yiyələnmək, işində çətinliklərin aradan qaldırılması şagirdin paktikasına yaxşı təsir göstərir, şagirdlərdə öz qüvvəsinə inam yaradır. Məlumatın mexaniki mənimsənilməsi, formul və təriflərin şüurun iştirakı olmadan əzbərlənməsi bilikləri formal mənimsənilməsinə səbəb olur. Hər bir işdə bacarıq lazımdır. Çünki insan arzusunu həyata keçirmək üçün öz səyi və bacarığı sayəsində istədiyi məqsədə nail ola bilər. Göz görmək, ağıl başa düşmək üçündür, yəni bilik olmasa şagird bacarığını formalaşdırmaqda çətinlik çəkər. Bacarıq şagirddə əmək vərdişlərini formalaşdırır, onu müstəqilliyə və yaradıcılığa alışdırır. Deməli, bacarıq biliyi məqsədyönlü formada həyata keçirir. Şagird təlim prosesində qazandığı hərəkəti, yəni bir növ biliyi bacarığa çevirmək prosesini intensivləşdirməsi hadisəsi kimi vərdişi formalaşdırıb alışqanlıq halına salır. Hər hansı bir bacarığı dəfələrlə təkrarlayan bir şagird bacarığı vərdişə çevirmiş olur. Şagirdin nəinki cəmiyyətdən, həmçinin ailədən, dövlətdən qazandığı milli və mənəvi dəyərlər onun şəxsiyyət kimi formalaşmasında əsas rol oynayır. Ümumiyyətlə, dəyərlər şəxsiyyəti formalaşdıran keyfiyyətlərdəndir. Şagirdin nailiyyəti isə bilik və bacarıq əsasında əldə olunub formalaşan dəyərlər sisteminə aiddir. İnsanın vətənpərvərlik, demokratiklik, humanistlik kimi keyfiyyətləri özündə cəmləşdirməsi, yoldaşına kömək etməsi, böyüklərinə hörmət etməsi, səbrli olması, qətiyyətli olması, cəsarətliliyi, özünü ələ ala bilməsi, inamı, xeyirxahlığı, məsuliyyətliliyi, intizamlılığı, işgüzarlığı, mərdliyi kimi keyfiyyətləri özündə birləşdirməsi kompetensiyanı formalaşdıran prinsiplərdəndir. Şagirdlər üçün əlavə addımların atılması, tədris materialının şagirdlər tərəfindən əsaslı dərk olunmasının təşkil edilməsi, bu məqsədlə müəllimin şagirdlərin şüurunu hərəkətə gətirməsi, onları düşünməyə, fikir yürütməyə vadar etməsi, onların diqqətini öyrənilən hadisələrdə səbəb-nəticə əlaqələrinə yönəltməsi, müəllimin rəhbərliyi ilə şagirdlərin müəyyən əqli nəticələr çıxarması qarşıda duran əsas prinsiplərdəndir”.

**Təhsil ekspertinin fikrincə, ümumtəhsil məktəblərində kurikulumun tətbiqi uşaqlarda təlim zamanı əsasən fəallığı artırır.** Şagirdlərdə düşünmə qabiliyyətini, yaradıcılığı, sərbəst fikir yürütmək, öyrəndiklərini tətbiq etmək, müzakirə etmək və s. bu kimi bilik və bacarıqları inkişaf etdirir. Bu sistemi səmərəli tətbiq etmək etmək üçün 2 məqama diqqət çəkmək istəyirəm: ”Dərsliklər kurikulumun tələblərinə uyğun hazırlanmalıdır. Zənnimcə, hazırda müvafiq yeni dərs vəsaitləri və tədris-metodik vasitələrin hazırlanmasına böyük ehtiyac var. Hər dərsdə tətbiq olunan alt standartın bilik və fəaliyyət hissəsi düzgün ayird olunmalıdır.

Eyni zamanda kurikulumu təhsildə tətbiq etməmişdən əvvəl müəllimləri bu sistemə ciddi şəkildə hazırlamaq önəmlidir. Dərsi təşkil edən müəllimdir və təhsilin keyfiyyəti birbaşa olaraq, müəllimin keyfiyyətindən asılıdır. Öncə kurikulumun mahiyyətini anlamaq vacibdir. Dərslərimizdə də bu mövzuya tez-tez toxunuruq ki, müəllimlər kurikulum anlayışını necə anlayır və tətbiq edir? Düşünürəm ki, kurikulumun səmərəli tətbiqi məhz bu sistemin düzgün anlaşılmasından başlayır”.

**Şəymən Bayramova**

# Şiddət və qorxu təlqin edir

## “Helloen” bayramının Azərbaycanla heç bir əlaqəsi yoxdur

**Hər il oktyabrın 31-də dünyanın müxtəlif ölkələrində təntənəli şəkildə keçirilən “Helloen” bayramını ölkəmizdə bəziləri qəbul etmir. Buna rəğmən Bakının bir çox restoranlarında, klublarında bu bayram çox təmtəraqla qeyd olunub. İnsanlar bu bayramın özəllikləri olan qəribə geyimlər geyinib, qorxuducu qrimlər edərək həmin restoranlara, tədbirlərə axışıblar. Hətta bir çox əyləncə mərkəzləri uşaqların diqqətini cəlb etmək üçün ödənişsiz şou-proqramlar təşkil ediblər.**

Maraqlısı odur ki, bir çox özəl bağçalarda, məktəblərdə də bu bayram qeyd olunub. Bayramın mahiyyətini anlaya bilməyən körpələr cadugərlər, ölülər kimi bəzədilib, qorxu kinolarını xatırladan libaslar geyindirilib. Hətta bəzi tədbirlərin görüntülərindən görünür ki, balaca uşaqlar ətrafdakı bu görüntülərdən çəkinir və qorxurlar. Valideynlər və müəllimlər isə çalışırlar ki, bu xoşagəlməz mənzərəni körpəyə sevdirsinlər.

Dövlət bağçaları bu ərəfələrdə uşaqların yaşına uyğun ”Payız bayramı” təşkil etdiyi halda özəl müəssisələrin cadılara marağı haradan qaynaqlanır?

Hansı ki, mütəxəssislərə görə, ”Helloen” şənliyi zamanı özümüz fərqində olmadan uşaqları əyləndirmək xətrinə onlara şiddəti və zorakılığı təbliğ etmiş oluruq.

Psixoloqlar bizim üçün yad olan bu bayramın uşaq bağçalarında təşkil edilməsinin azyaşlılara ciddi psixoloji təsir etdiyini söyləyirlər.

**Psixoloq Sənubər Yusubovanın sözlərinə görə, bu bayramın təşkili hər nə qədər ölkədə qınanılsa da hər il Azərbaycanda ”Helloen” bayramını qeyd edənlərin sayı çoxalır:** ”Sadəcə uşaq bağçalarında, uşaq əyləncə mərkəzlərində deyil, valideynlər evlərində də uşaqları ilə birlikdə bu bayramı qeyd edir.

Halbuki, bu bayramın bizimlə yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Biz həmişə uşaqların şəxsiyyətinin formalaşdırılması zamanı onlara cəmiyyətə qarşı mehriban olmağı təlqin edirik, empatiya bacarığının inkişafına çalışırıq və s. ”Helloen” isə aqressiyanın normal qəbulu, çirkin görüntünün bir növ cəmiyyətə aşılanmasıdır. Bu baxımdan mən qəti şəkildə ”Helloen” bayramının tərəfdarı deyiləm. Hər hansı bir adətin müsbət məramı yoxdursa, o bayramın keçirilməsinin əleyhinəyəm. Müsbət olmayan şeylərin mütləq mənfi nəticələri də var”.



**Məktəbliləri, bağça uşaqlarını, ümumiyyətlə, bu şənliklərdən uzaq tutmaq lazımdır**

**Psixoloqun sözlərinə görə, uşaq bağçalarının məqsədi bu tədbirlə uşaqları əyləndirmək olsa da, bəzən özləri də bilmədən uşaqlara şiddət, qorxu aşılaya bilərlər.** Ümumiyyətlə, qorxulu və zorakılığı təbliğ edən personajların canlandırılmasında diqqətli olmaq lazımdır. Bu zaman özümüz fərqində olmadan uşaqları əyləndirmək xətrinə onlara şiddəti və zorakılığı təbliğ etmiş olarıq. Çalışmaq lazımdır ki, uşaq bağçalarında daha çox müsbət qəhrəmanlar canlandırılsın. S.Yusubova bildirir ki, bu cür bayramlar təşkil olunmadan öncə onların cəmiyyətə, uşaqlara hansı mesajı ötürdüyünə diqqət etmək vacibdir: ”Uşaqların gözünün qarşısında bu cür səhnələri canlandırmaq olmaz. Ümumiyyətlə şiddət, zorakılıq təbliğ edən səhnələrdən uşaqları uzaq tutmaq lazımdır. Çünki uşaq psixologiyası belə məqamlara qarşı çox həssas olur. Onların yaddaşında mənfi iz buraxır”.

**Şəymən**

# Yaxşı tərəfləri də var

## Özünü yaxşı apara bilməyən istifadəçiyə görə "TikTok"u bloklamaq çıxış yolu deyil




**Ələsgər Məmmədli:**
"TikTok"un birmənalı olaraq zərərli kontent istehsal etməsi fikri yanlışdır"



**Əhməd Qəşəmoğlu:**
"Sosial şəbəkələr ilan zəhəri kimidir. Onlardan düzgün istifadə etmək dərmandırsa, bir qədər çox istifadə etmək təhlükəli, lap çox istifadə etmək isə öldürücüdür"



**Seymur Verdizadə:**
"Dövlət nə vaxt bu şəbəkənin fəaliyyətinə icazə verəcəksə, o zaman fəaliyyətimi bərpa edəcəyəm"



**"TikTok" sosial şəbəkə platformasına ölkə ərazisində giriş müvəqqəti olaraq sentyabrın 14-dən Ermənistan silahlı birləşmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribatdan sonra məhdudlaşdırılıb. Buna səbəb isə dezinformasiya xarakterli məlumatların yayılmasının qarşısını almaqdır.**

Bu platformadan daimi istifadə edən, canlı yayımlar vasitəsilə gəlir əldə edən insanları isə düşündürən bir sual var: Azərbaycanda "TikTok"a qoyulan məhdudiyyət nə vaxt götürüləcək?

Qeyd edək ki, sabiq deputat Hüseynbala Mirələmov yeni açıqlamaları ilə diqqət mərkəzinə düşüb. O, müsahibəsində sosial şəbəkələrə qarşı olduğunu bildirib.

Sabiq deputat bildirib ki, əgər əlində səlahiyyət olsaydı, "TikTok"u bağladardı. Onun bu fikri sosial şəbəkələrdə birmənalı qarşılanmayıb.

**Media eksperti, hüquqşünas Ələsgər Məmmədli isə "Şərq"ə açıqlamasında qeyd edib ki, "TikTok"un birmənalı olaraq zərərli kontent istehsal etməsi fikri yanlışdır:** "Əvvəla onu deyim ki, ölkə ərazisində "TikTok" a girişin müvəqqəti də olsa məhdudlaşdırılması mövcud qanunvericiliyimizə ziddir. "Tiktok"da gənclər əxlaqdan kənar paylaşımlar edir, yaxud da dövlət sirri, hərbi münaqişələrlə bağlı zərərli informasiyalar yayılırsa bunun həlli şəbəkəni bloklamaq deyil. İstər real, istərsə də virtual həyatda fərqli mədəniyyət səviyyəsi, əxlaq anlayışı olan insanlar mövcuddur. Biz bütün sosial şəbəkələrin yaxşı və pis tərəflərini ayrı-ayrılıqda götürə bilərik. Bu bizim özümüzdən asılıdır. Amma heç bir halda düşünmək olmaz ki, bir şəbəkə yalnız pis kontent istehsal edir. Mətbəxdəki bıçaqdan siz soğan soymaq üçün istifadə edirsiniz, amma kimsə həmin bıçaqla başqasına hücum edib, onun həyatına son verə bilər. Yəni mətbəxdəki bıçağı pis niyyətlə istifadə etməyənə qədər, o, pis məna daşımaz. Eyni ilə sosial şəbəkələr də özlüyündə pis məqsəd daşımır, ta ki onun üzərinə kontenti pis niyyətlə yerləşdirənə qədər. Burada daha çox faydalı aspektləri təşviq etmək lazımdır. Çünki qısa videolar, qısa mesajlar şəklində çox dəyərli bilgilər axtarmaq, maraqlı riyazi informasiyalar ötürmək, görmək mümkündür. Hər hansı videolardan kəsilmiş, birbaşa məqsədə yönəlmiş siyasi, ictimai, sosial mesajlar da ola bilər. Bütünlüklə bir şəbəkəni yaxşı və ya pis deyib, ayıra bilmərik. Hər bir sosial şəbəkənin içərisində pis də, yaxşı da var. Həmçinin əxlaqa zidd, əxlaqa uyğun olan kontent də var. Hətta siyasi şərhli "Twitter" üzərindən baxsanız orada da əxlaqa zidd kateqoriya görə bilərsiz. Şəbəkə özlüyündə kontent deyil, şəbəkə sadəcə platformadır. Onun üzərindəki kontenti biz istifadəçilər formalaşdırırıq.

Hansısa bir istifadəçi "TikTok"da özünü yaxşı aparmırsa buna görə sosial şəbəkəni cəzalandırmaq adekvat deyil. Ayrı-ayrı şəxslər öz paylaşımları ilə bağlı məsuliyyət daşımırlarsa, bununla bağlı fərdi tədbirlər görmək olar. Təsəvvür edin ki, kimsə telefonla sizə zəng edib söyüş söyür və siz isə söyənə əliniz çatmır deyə, əsəbdən telefonu divara çırpıb sındırırsınız. Bu nə dərəcə düzgün cəzalandırma üsuludursa, ayrı-ayrı istifadəçi paylaşımlarına görə, "TikTok"u bloklamaq da eyni mahiyyət daşıyır. "TikTok"un məhdudlaşdırılması ilə bağlı qərar verən qurumlar bilməlidir ki, hazırda gənclərin əksəriyyəti pulsuz "VPN"lər üzərindən çox rahat şəkildə öz hesablarını aktiv saxlayırlar. Yəni seçdikləri mübarizə üsulu fayda yox, daha çox zərər verir. Azərbaycanda "TikTok"a giriş məhdudlaşdırılan gün mən xaricdəydim və buna rəğmən Azərbaycan kontingentinin paylaşdığı çoxsaylı hərbi informasiyaları gördüm. Yəni ki, "TikTok"un bağlanması "Dəvəquşu siyasəti"dir".

Cəmiyyət üçün sosial şəbəkələrin zərərindən çox faydasının olduğunu vurğulayan ekspertə görə, hər bir sosial platforma insanların özünü ifadə etməsinə və informasiya əldə etməsinə xidmət edir: "TikTok" dezinformasiyaların qarşısını almaq üçün maarifləndirmə aparmalı və daha müsbət məqsədlər üçün istifadəsinə nail omaq lazımdır. "TikTok"un inkişaf səviyyəsi ondan öncəki bütün sosial şəbəkələrdən iki dəfə yüksəkdir. Çünki "TikTok"da mobil texnologiya üzərindən istənilən vizual kontenti yayma, həmin video kontentə mətn əlavə etmək imkanı var və bu, istər-istəməz onu cəlbedici hala gətirir. "TikTok"un təqdimatına qoşulduğunuz zaman hansı kontenti görmək istəməyinizdən asılı olaraq seçim verir. Siz faydalı kontentləri seçmiş olsanız, o zaman deyilən hansısa əxlaqsız, digər mənfi kontentləri görməyəcəksiz. Yəni istifadəçi özü bunu kontrol edə bilir".

"TikTok"un Ermənistan silahlı birləşmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribatdan sonra məhdudlaşdırılmasına diqqət çəkən Ə.Məmmədli hesab edir ki, bu həm də bir ayrıseçkilikdir: "Hərbi vəziyyətlə bağlı paylaşımlar daha çox "Teleqram"da paylaşılır və sürətli yayılır. Bu reallıq fonunda niyə məhz "TikTok"a giriş bloklanıb? Həm də ki, hərbi sirlərin qorunmasına mükəlləf olan qurumlar öz vəzifələrinin öhdəsindən gələ bilmirsə, burada "TikTok"un nə günahı var?"

**Sosioloq Əhməd Qəşəmoğlu da hesab edir ki, "TikTok" və ya digər sosial şəbəkələrin hansısa bir qolunu qadağan etmək düzgün yanaşma deyil.**

Bu həm beynəlxalq aləmdə pis səslənir, həm də ölkə daxilindəki insanları həmin xidmətlərdən məhrum edir: "Sosial şəbəkələr ilan zəhəri kimidir. Onlardan düzgün istifadə etmək dərmandırsa, bir qədər çox istifadə etmək təhlükəli, lap çox istifadə etmək isə öldürücüdür. Biz həm maarifləndirmədən, həm də nəzarət mexanizmindən güclü şəkildə istifadə etməliyik. Yəni yalnız maarifləndirmə və ya yalnız nəzarətlə nəyə isə nail olmaq mümkün deyil. Televiziyalarımızda səviyyəsiz, şit verilişlər yayımlamaq əvəzinə bu sahədə maarifləndirmə aparmalıyıq. Bu sahədə böyük reytinq qazanan proqramlar hazırlamaq olar. Bunun üçün bacarıqlı jurnalistlərə və televiziya işçilərinə ehtiyac var.

Həmçinin valideynləri də maarifləndirmək lazımdır ki, sosial şəbəkələrdən həm özləri, həm də övladları düzgün şəkildə istifadə edə bilsinlər. Məktəblərdə də maarifləndirmə işləri aparılmalıdır və zərərli materialların nə üçün, kimlər tərəfindən yayıldığı, insanlara mənfi təsirləri izah edilməlidir. Digər tərəfdən ölkədaxili alternativ sosial şəbəkələr yaratmağa çalışmalıyıq. Buraya xüsusən gəncləri cəlb etmək, maraqlı məsələləri işıqlandırmaq və sosial şəbəkənin özündə maarifləndirici işlər aparmaq lazımdır. Bunun üçün komanda olmalıdır. Böyük bir heyət işləməlidir ki, nə isə etmək mümkün olsun. Bundan əlavə, filtrlərdən istifadə edərək xoşagəlməz, arzuolunmaz, mənəvi dəyərlərə mənfi təsir edən materialların yayılmasının qarşısını almaq lazımdır. Həmçinin bu cür materiallara baxan insanlara xəbərdarlıq edilə bilər. Vəziyyəti ətraflı təhlil etmək və Azərbaycan insanına hansı şəkildə təsir etməyin mümkün olduğu müəyyənləşdirilməli və bununla bağlı işlər görülməlidir".

**"Yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə isə hesab edir ki, sosial şəbəkələr təkcə Azərbaycanda deyil, dünyanın hər yerində sürətlə enerji qəbiristanlığına çevrilir. "TikTok" isə bu sıralamada ön yerdə dayanır:** "Başqa ölkələri deyə bilmərəm, amma Azərbaycanda "TikTok" ciddi virtual məkan hesab olunmur. Hətta mən "TikTok"da hesab açanda bəzi dostlarım narazılıq edib, mənə məhz bu platformada fəaliyyət göstərməyi rəva görmədilər.

Buna baxmayaraq, "TikTok"da hesab açdım və qısa müddət ərzində böyük auditoriya toplaya bildim. Elə videolarım oldu ki, bir gecədə 200 min baxış topladı. Auditoriya getdikcə genişlənsə də, "TikTok"un bağlanmasından sonra fəaliyyətimi dayandırdım. Bəli, hazırda "TikTok"a VPN-lə daxil olanlar var. Bu adamların sayı günbəgün artır. Mən qanunlara, qaydalara riayət etməyi sevən adam olduğum üçün VPN vasitəsilə "TikTok"a qoşulmaqdan imtina etmişəm. Dövlət nə vaxt bu şəbəkənin fəaliyyətinə icazə verəcəksə, o zaman fəaliyyətimi bərpa edəcəyəm. Mən orada ciddi sosial problemlərdən bəhs edən videolar paylaşırdım. Qarşıma "TikTok"u ciddi platformaya çevirmək kimi bir vəzifə qoymamışam. Amma bu platformada həmişə ciddi paylaşımlar edəcəyimə əmin ola bilərsiniz.

Sabiq deputat, yazıçı Hüseynbala Mirələmovun "TikTok"un birdəfəlik bağlanması ilə bağlı arzusuyla tanışam. Hüseynbala Mirələmovdan və onun kimi düşünən adamlardan olsa, Azərbaycanda bütün sosial platformalar bağlanar. Biz sovet dövrünü çoxdan arxada qoymuşuq. Fərqli düşüncədən və fərqli düşünənlərdən qorxmaq lazım deyil. Biz ancaq fikir müxtəlifliyi sayəsində açıq, şəffaf cəmiyyət qura, qabağa gedə bilərik".

**Şəymən**

## "İnstagram" çökdü

### Şəbəkədəki problemlər dəqiqləşməyib

**"İnstagram" sosial şəbəkəsinin işində irimiqyaslı problemlər baş verib.**

Bunu internet resurslarının işində problemlərə nəzarət edən "Downdetector" xidmətində istifadəçilərin şikayətləri sübut edir.

Saytda minlərlə insan "Instagram"ın çökməsi ilə bağlı mesajlar yerləşdirib. "Downdetector"dakı xəritəyə əsasən, ABŞ-dan olan istifadəçilər problemlərlə üzləşiblər.

Şikayətlərin əksəriyyəti (65 faiz) proqramın işləməməsi ilə bağlıdır.

Bundan əlavə, istifadəçilərin 29 faizi hesablarına daxil olmaq istəyərkən, 6 faizi isə "Instagram"ın brauzer versiyasından istifadə edərkən problemlərlə üzləşib. "Instagram" sosial şəbəkədəki problemlərlə bağlı açıqlama yayıb. Bildirilib ki, hazırda tərtibatçılar istifadəçilərin öz hesablarına niyə daxil ola bilmədiyini anlamağa çalışırlar.

*Qeyd edək ki, sözügedən problemlərlə əsasən ABŞ istifadəçiləri üzləşiblər.*

## İş günü ilə istirahət gününün yerləri dəyişdirilib

### Altı günlük məktəblərdə noyabrın 7-si dərs olacaq



**Elm və Təhsil Nazirliyi noyabrın 5-9-da beş və altı günlük təhsil müəssisələrində iş günlərinin necə tənzimlənəcəyi ilə bağlı məlumat verib.**

Nazirlikdən bazar ertəsi verilən məlumata görə, Nazirlər Kabinetinin qərarı ilə noyabrın 7-si iş günü ilə noyabrın 5-i istirahət gününün yerləri dəyişdirilib.

Bununla əlaqədar beşgünlük iş həftəsi olan təhsil müəssisələrində noyabrın 5-i iş günü, noyabrın 6-9-u isə qeyri-iş günləri hesab edilir. Altıgünlük iş həftəsi olan təhsil müəssisələrində noyabrın 5-i iş gününə (istirahət gününə deyil) təsadüf etdiyindən, növbəti həftənin bazar ertəsi - noyabrın 7-si iş günü, noyabrın 8-9-u isə qeyri-iş günləri hesab edilir. Bir sözlə, 5 və 7 noyabr məktəblərdə iş günləridir.

## Saray-Novxanı yolunda yeni geriyə dönmə hissəsi yaradılıb

**Bakı-Quba-Rusiya ilə dövlət sərhədi avtomobil yolunun 16-cı km-də, "VAZ dairəsi" kimi adlanan ərazidə yerləşən yol qovşağında hərəkətin təşkili ilə bağlı layihənin davamı olaraq Saray-Novxanı yolunda daha yaxın məsafədə yeni geriyə dönmə hissəsi yaradılıb.**

"Report" xəbər verir ki, bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi məlumat yayıb.

Məlumata görə, bu, sıxlıq və tıxacın aradan qaldırılması məqsədilə edilib. Ərazidə zəruri yol nişanları quraşdırılıb və üfüqi nişanlanma xətləri çəkilib.

# Dönərlər xəstəlik saçır

## Monitorinqləri bütün ölkə boyu, mütəmadi həyata keçirmək gərəkir



**"Hər bir insan vicdanını qarşısına qoyub, qida məhsulları vasitəsilə ətrafına vurduğu ziyanın fəsadlarını düşünməlidir".**

*Bu sözləri qida məsələləri üzrə ekspert Elsevər Fərzəliyev "Şərq"ə deyib. Onun sözlərinə görə, qida istehsalı ilə məşğul olan şəxslər prosesə müdaxilə etməməlidirlər:* "Məhsullar zərərsiz olaraq, insanların sağlamlığına heç bir mənfi təsir göstərməməlidir. İlk növbədə, müəssisəni qeydiyyatdan keçirmək lazımdır. Bütün xammalların qəbulu qanunauyğun şəkildə aparılmalıdır. Mənşəyi məlum olan xammallardan istifadə edilməlidir.

Texnoloji proseslərin icrası üçün ardıcıl yerinə yetirilən texnoloji əməliyyatlar məcmusu hazırlanmalıdır. Bu sxemin yaradılması və icrasında mütəxəssislərə müraciət olunmalıdır. İnanmıram ki, bu prosesi təşkil edən adamların arasında bir qida mühəndisi olsun. Əks halda, ən azından 4-6 il qida məhsullarının texnologiyaları üzrə təhsil alan insanlar belə bir səhvə yol verməzdilər.

Bu işi reallaşdıranlar arasında bilərəkdən yanlış edən insan varsa, deməli, o, xalq düşmənidir. Millətin zəhərlənməsi, sağlamlığının korlanması kimi amillərə şərait yaradır. AQTA bu məsələləri aşkar edir. Agentliyin bu faktları araşdırması və tapmasını təqdir edirəm.

Yaxşı olardı ki, analoji monitorinqlər mütəmadi xarakter daşısın. Müxtəlif istehsal sahələrində də həyata keçirilsin. Qarşısını almaq üçün media orqanları xalqı maarifləndirməlidir. Belə hallara göz yuman insanlar cinayət məsuliyyətinə cəlb edilməlidir ki, digərlərinə də dərs olsun".

*Qeyd edək ki, çiy dönər istehsalı müəssisəsində pozuntular aşkarlanıb.*

*Bu barədə Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib. Bildirilib ki, Bakı şəhəri, Sabunçu rayonu, Kürdəxanı qəsəbəsi, Bilgəh-Nardaran-Kürdəxanı şosesi 14-cü kilometr ünvanında fəaliyyət göstərən fiziki şəxs Əlövsət Hətəm oğlu Musayevə məxsus çiy dönər istehsalı müəssisəsində plandankənar yoxlama keçirilib. Yoxlama zamanı müəssisənin qanunsuz fəaliyyət göstərdiyi, həmçinin qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinə əməl olunmadığı müəyyən edilib.*

***Sücayət Mehti***

## Parkda pandus dərdi

### İnsanlar çətinlik çəkirlər



**Paytaxt ərazisində yerləşən parkların birindən fiziki məhdudiyyətli şəxslər və uşaq arabası ilə gəzən sakinlər istifadə edə bilmirlər. Buna səbəb isə onların hərəkəti üçün quraşdırılmış pandusdur. Pandus elə inşa edilib ki, ümumiyyətlə istifadəyə yararsızdır.**

Məsələyə rəsmi qurum da münasibət bildirib.

"Şərq" Xəzər Xəbər-ə istinadən xəbər verir ki, uşaq arabasını yuxarı qaldırmaq üçün dəfələrlə cəhd edir. Ana nə qədər səy göstərsədə, körpə uşağı ilə yuxarı qalxa bilmir.

Bura Paytaxtın Azadlıq Prospekti və Süleyman Rəhimov küçələrinin kəsişməsində yerləşən parkdır. Parkın pilləkənlərində nəzərdə tutulmuş pandus düzgün tikilməyib. Bu isə fiziki imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan insanların və uşaq arabası ilə olan şəxslərin hərəkətində çətinliklər yaradır.

Bu hal paytaxt sakinlərini də narahat edir.

Bəzi sakinlər isə iddia edir ki,umumiyyətlə o pandusdakı pilləkənlər artıqdır.

Ekspertlər isə bildirir ki,pilləkən sayı az olan yerlərdə dəmir məhəccərlərə ehtiyac yoxdur. Digər ərazlərdəki panduslarda isə pilləkənlər içəridə olmalıdır.

Məsələ ilə əlaqədar Nəsimi rayon icra hakimiyyətindən isə bildirildi ki, əraziyə baxış keçirildikdən sonra problemin həlli istiqamətində işlər görüləcək.



## Bu il bal yarmarkasında 90 tona yaxın arıçılıq məhsulu satılıb

### 5 tonu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşüb

**Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Arıçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə 1-20 oktyabr tarixlərində Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ünvanında keçirilən arıçılıq məhsullarının 22-ci Respublika Sərgi-Satış Yarmarkası başa çatıb.**

Nazirlikdən "Şərq"ə verilən məlumata görə, bu il Bal yarmarkasında 90 tona yaxın arıçılıq məhsulu satılıb. Yarmarkada iştirak edən hər bir arıçıya satışa maksimum 400 kq bal və maksimum 30 ədəd arı şanı (çərçivə) çıxarmaq hüququ verilib. Yarmarkaya qeydiyyat 29-31 avqust tarixlərində onlayn qaydada bal.kendden.az saytı vasitəsi ilə həyata keçirilib. Yarmarkada iştirak edən arıçılar növbəlilik prinsipi ilə müəyyənləşib, arıçılara fəaliyyət göstərdikləri rayonların arıçı sayına uyğun olaraq proporsional qaydada müvafiq sayda yer ayrılıb. Builki Bal yarmarkasında ümumilikdə 250 arıçı iştirak edib. İştirak edən arıçılara Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) qeydiyyatdan keçərkən etdiyi bəyana uyğun olaraq minimum 40 arı ailəsinə malik olması tələbi qoyulub. Bu il yarmarkada ilk dəfə olaraq Şərqi Zəngəzur iqtisadi rayonunu təmsil edən arıçılar iştirak ediblər. Ümumilikdə yarmarkaya 120 tona yaxın arıçılıq məhsulu çıxarılıb. Bunun da 5 tonu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşüb. Yarmarkaya təqdim edilən bütün arıçılıq məhsulları Qida Təhlükəsizliyi Agentliyi tərəfindən laboratoriya şəraitində yoxlamadan keçirilib. Yarmarkaya yalnız keyfiyyət və qida təhlükəsizliyi göstəriciləri uyğun olan arıçılıq məhsulları buraxılıb.

*Qeyd edək ki, yarmarkanın son günündə təşkilatçı qurum tərəfindən 45 arıçı keyfiyyət və qida təhlükəsizliyi göstəricilələri üzrə ən yüksək bal və arıçılıq məhsulları təqdim etdiyinə görə "Keyfiyyətli arıçı" və "Fərqlənmə" sertifikatları ilə təltif olunublar.*

# İfşa olunur, amma xeyri yoxdur

## Saxta içkilər bazarlarda hələ də qalmaqdadır

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) "Qızıl Tac" şadlıq sarayında saxtalaşdırma yolu ilə spirtli içkilərin istehsal olunduğunu aşkarlayıb.**

Daxil olmuş məlumat əsasında Bakı şəhəri, Nəsimi rayonu, 20 yanvar küçəsi 15A ünvanında fəaliyyət göstərən fiziki şəxs Şirinov Vüsal Telman oğluna məxsus "Qızıl Tac" şadlıq sarayında plandankənar yoxlama həyata keçirilib.

Yoxlama zamanı şənlik mərasimində istifadə üçün nəzərdə tutulmuş aşkar saxtalaşdırılma əlamətləri olan 3 ədəd 1 litrlik, 10 ədəd 0,7 litrlik "Organic Line" əmtəə nişanlı və 1 ədəd 0,7 litrlik "Mınskc" əmtəə nişanlı alkoqollu içkiləri aşkar edilib.

Araşdırma zamanı qanunsuz olaraq saxta spirtli içkilərin istehsalında araq butulkalarından təkrar istifadə olunmaqla, həmçinin başlıq hissələrinin kustar üsulla hazırlanaraq bərkidildiyi, eyni zamanda malların orijinalından kəskin fərqləndiyi müəyyən edilib.

Aşkar olunmuş faktla bağlı dərhal alkoqollu içkilərin realizasiyası dayandırılmış və məhsullar möhürlənərək saxlanca verilib. Müayinələrin aparılması üçün məhsullardan nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarına təqdim olunub.



**"AQTA-nın gördüyü işlər dəryada damladır"**

**Bu işlərin qarşısını almaq üçün ilk növbədə qanunvericiliyə baxmalı olduğumuzu deyən Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov "Şərq"ə bildirib ki, AQTA-nın gördüyü işlər dəryada damladır: "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanun 1995-ci ildə qəbul olunub və ondan bu yana 20 dəfə dəyişiklik olub. Bu dəyişikliklərin hər biri isə istehlakçıların ziyanınadır.** Dünyada bazardan sürətlə inkişaf edən heç bir subyekt yoxdur. Bazarlar inkişaf etsə də, istehlakçıların hüququnu qoruyan qanun yerindəcə qalır. Biz Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) stantardlarına baxsaq görəcəyik ki, orada qidanın keyfiyyətindən yox, təhlükəsizliyindən söhbət gedir. Üstəlik, qanunvericilikdə təhlükəli malın satılması barəsində məlumat verildikdə, hansısa dövlət orqanının onun qarşısını alması barəsində heç bir şey yoxdur. Verilən nöqsanın qarşısının alınması ən azı 5 gün çəkəcəkdir. Çünki ortada bürokrat prosedur var. Ona görə də Azad İstehlakçılar Birliyi (AİB) cəld reaksiya mexanizminin yaradılmasını təklif edir. Bunun üçün isə AQTA-ya cəld müdaxilə səlahiyyəti vermək lazımdır.

*Sədr bildirib ki, içki seqmenti çox bərbad vəziyyətdədir:* "İçki seqmentinin bərbad vəziyyətdə olduğunu 3 il bundan öncə Daxili İşlər Nazirliyinin Baş mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsi ifşa etdi. Onlar sübut etdilər ki, çoxsaylı brend içkilər, ən məşhur dükanlarda belə saxtadır və butulkalara doldurularaq satılır. Ona görə də bu kimi halların qarşısını almaq üçün Baş mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsinə səlahiyyətlər verilməlidir. Çünki onlar təkcə ifşa etmir, həm də cinayət işi qaldırırlar. Ümumiyyətlə, qanunları dəyişmək lazımdır. Mən keçən dəfə Ombudsman Aparatı ilə görüş keçirib, bu məsələlərin həlli üçün vəsatət qaldırdım. Hazırda isə ayrı-ayrı deputatlarla işlər aparılır".

**Nihat Müzəffər**

# "Parabüzən" hadisələrin yaşandığı ərazidə çəkilib

## Böyük fədakarlıq hesabına başa gələn film Vətən sevgisindən doğub









**1993-cü ildə 54 gün erməni mühasirəsində qalmış 19 Azərbaycan vətəndaşı ilə bağlı çəkilən "Parabüzən" qısametrajlı sənədli filminin təqdimatı olub. Təqdimatda rəsmilər, deputatlar, ictimaiyyət və media nümayəndələri iştirak ediblər. Filmin kadrları 19 nəfərin mühasirəyə düşdüyü yer - Kəlbəcərin Çaykənd kəndi, mühasirədə qaldıqları ərazi - Laçının Oğuldərə kəndi və mühasirəni yardıqları yer - Laçının Güləbird kəndində lentə alınıb. Filmdə 19 nəfərin mühasirədən hansı yolla çıxmasından bəhs olunur. Filmin direktoru, "Report" İnformasiya Agentliyinin rəhbəri Fuad Hüseynəliyev bildirib ki, ekran işi Ali Baş Komandan, ölkə başçısı İlham Əliyevin qətiyyəti, şəhidlərimizin qanı və qazilərimizin əzmi bahasına Qarabağın azad olunduğuna görə ərsəyə gəlib: "Filmin çəkildiyi ərazilər hələ də işğal altında olsaydı, heç bir çəkiliş baş tutmazdı.**

Ona görə də torpaq uğrunda canlarından keçən şəhidlərin ruhu qarşısında baş əyir, qazilərimizə sağlamlıq diləyirəm. Bu mövzuda daha əvvəl də film çəkilmişdi, lakin o vaxt biz hadisələrin yaşandığı ərazilərə gedə bilməmişdik. Lakin artıq torpaqlarımız işğaldan azad edildikdən sonra biz mühasirədə qalmış şəxslərlə birlikdə hadisələrin yaşandığı ərazilərə gedərək, 29 il əvvəl baş verənləri sənədli filmə çevirdik".

**Filmin adının nə üçün "Parabüzən" olmasına isə filmin quruluşçu rejissoru və senari müəllifi Ayaz Mirzəyev aydınlıq gətirib. O deyib ki, parabüzənlə bağlı çox qəribə olsa da, təsadüfi və ya mistik hadisə baş verib:** "Hər kəs mühasirəyə düşənlərin Kəlbəcər tərəfdən gələcəyini gözləsə də, mühasirədə olan Əli Əliyevin oğlu İmdad Əlizadənin uçurduğu parabüzən hər kəsin düşündüyünün əksinə tam fərqli istiqaməti göstərib. Bu, dəfələrlə belə davam edir. İlahi qüvvədir deyə düşünürəm. Hətta İmdad bir müddət parabüzəndən küsür, bu, özü də çox təsirli məqamdır. Nəticədə isə həqiqətən də mühasirədən qayıdan 19 nəfər məhz parabüzənin göstərdiyi istiqamətdən gəlib. Biz çalışdıq ki, bu filmdə 19 nəfərin 54 gün ərzində həyata tutulmasını, bir-birinə dəstək olmasını göstərək. 29 il sonra bizə bu ərazilərə yenidən qayıtmağı isə Ali Baş Komandanın tapşırığı altında Azərbaycan Ordusu yaşatdı. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin".

**Filmin prodüseri, "Report" İnformasiya Agentliyinin redaktoru İmdad Əlizadə isə qeyd edib ki, filmdə əsas məqam ermənilərin istər Birinci, istərsə də İkinci Qarabağ müharibəsində dinc sakinlərə qarşı törətdikləri zülmü ictimaiyyətə göstərməkdir:** "Bu filmin çəkilişlərinə 3 ay öncə başladıq. Film Kəlbəcər və Laçın rayonları ərazilərində lentə alınıb. Həmin yerlərə yenidən getmək, o hissləri yenidən yaşamaq çox başqa bir duyğudur. Bunu sözlə ifadə etmək çətindir. Bu ekran işi Ermənistanın Azərbaycana, mülki vətəndaşlara qarşı törətdiyi terror aktını, qeyri-insani davranışlarını, hərbi təcavüzünü göstərdiyi sənədli filmdir. Bu, heç bir senaristin, rejissorun təxəyyülünün məhsulu deyil, filmdə çəkilənlər də aktyorlar deyil. Bu film 19 nəfərin 54 gün ərzində erməni mühasirəsində nələr yaşamasından, necə həyatda qalmasından bəhs edir".

**Təqdimatda çıxış edən Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov deyib ki, Birinci Qarabağ müharibəsinin dəhşətlərini beynəlxalq ictimaiyyətə təqdim etmək baxımından "Parabüzən" qısametrajlı sənədli filmi kimi ekran işlərinin xarici dillərə tərcümə olunaraq nümayiş etdirilməsinə böyük ehtiyac var:** "Azərbaycan mediası da məhz bu nümunələrdən istifadə edib, belə hekayələri tapıb onları daha geniş işıqlandırmaqla beynəlxalq ictimaiyyətə çatdırsa, məncə, Azərbaycanın haqq səsini dünyaya çatdırmış olar. Mediamız həmin dövrdə ölkə reallıqlarını Azərbaycan daxilində, eləcə də beynəlxalq arenada tanıtdırma missiyasını yerinə yetirdiyi kimi, bu gün də məhz "Global Media Group"un dəstəyi ilə filmin ərsəyə gəlməsi bu missiyanı şərəflə davam etdirmiş oldu. Düşünürük ki, belə hekayələrlə erməni vandallığının beynəlxalq ictimaiyyətə çatdırılmasına böyük ehtiyacımız var. İnanıram ki, bu kimi layihələr davamlı olacaq".

Milli Məclisdə Laçın rayonunu təmsil edən deputat Mahir Abbaszadə bildirib ki, "Parabüzən" filminə baxanda erməni zülmünü, mühasirədə qalan insanların ağrılarını və əzmini hiss etdik: "Bu gün 29 illik vətən həsrətinə son qoyulub, mühasirədə mübarizə aparan insanların torpağı artıq azaddır". O vurğulayıb ki, bu gün azad Qarabağa, Şərqi Zəngəzura azad şəkildə səfər edə, belə çəkilişlər apara bilirik: "Əslində bir azərbaycanlı ailəsinin erməni ilə qarşılaşdığı və apardığı mübarizə bütövlükdə Azərbaycan xalqının nə qədər mübariz olduğunu nümayiş etdirmiş oldu. Hesab edirəm ki, belə filmlər çəkildikcə, digər xarici dillərə tərcümə olunduqca bizdən sonra gələn nəsillərin Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, erməni quldurlarının mülki azərbaycanlılara etdiyi zülm barədə geniş məlumatları olacaq. Eyni zamanda, bu gün düşmənimizi müdafiə edən qüvvələr bu ekran işinə baxaraq tutduqları əməllərdən utanmalıdırlar ki, erməni cəlladları azərbaycanlılara belə ağır faciələr yaşadıblar". M.Abbaszadə söyləyib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti və sərkərdəliyi, Azərbaycan Ordusunun gücü, şəhidlərin qanı, qazilərin canı hesabına və Azərbaycan xalqının mübarizəsi ilə torpaqlarımız işğaldan azad olunub: "Filmdə izlədiyimiz bəzi şəxslər artıq dünyadan köçüb. Rəhmətə gedənlərin artıq ruhu şaddır ki, uğrunda mübarizə apardıqları torpaqlar düşmən tapdağından təmizlənib, bu gün azaddır və azərbaycanlılar, o cümlədən mühasirədə qalanların övladları dinc şəkildə gedib o yerləri ziyarət edirlər. Bizim ən böyük qələbəmiz bundan ibarətdir. Kəlbəcər və Laçını yaxşı tanıyan, orada doğulub böyüyən biri olaraq deyə bilərəm ki, bu gün həmin ərazilərdə çəkiliş aparmaq, heç bir şərait olmadan gecələmək olduqca çətindir və fədakarlıq tələb edir. Fədakarlıqdan savayı, gərək Vətənə sevgi də ola. Hesab edirəm ki, "Parabüzən" filminin çəkilməsinə səbəb də Vətən sevgisidir".

**İsmayıl**



## Fatimə avtomobilindən cadu tapdı

### Rəqqasə həmin şəxsin adını çəkmədən, ona ismarış göndərib

**Rəqqasə Fatimə Fətəliyevanın başına iş gəlib.**

Sənətçi avtomobilindən cadu tapdığını deyib. Bu haqda instaqramda canlı yayımda danışan rəqqasə həmin şəxsin adını çəkmədən, ona ismarış göndərib:

"Nədir səni belə öldürən? Məndən yaxşı maşın sürən, bahalı evdə yaşayan da var. Niyə gözünə girmişəm, de. Öz zəhmətimlə, qaçhaqaçdayam. Niyə səni belə yandırmışam. Sonuncu sözüm budur: əməllərindən əl çəkməyəcksən, hobbindir. Çünki səni yaman yandırmışam. Ağıllı və Allahdan qorxan adam bilər ki, belə işlərin sonu yoxdur. cadugarlar, o dünyadan qorxun. Maşına gecə ilə şamı necə töküblər. Bunu necə bacarırsınız? Hünəri çatmır gəlib üzümə desin ki, səndən zəhləm gedir".

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3167



## Kraliça Elizabetin atlarını satıdı

III Çarlz milyon funt-sterlinqdən çox pul qazanıb

**Böyük Britaniya kralı III Çarlz mərhum kraliça II Elizabetin sevimli yarış atlarını sataraq 1 milyon funt-sterlinqdən çox gəlir əldə edib.**

Oxu.az xəbər verir ki, kral mərhum anasının on dörd atını Nyumarketdəki "Tattersalls" hərracında satıb. Satışın monarxa cəmi 1,075 milyon funt sterlinq qazandırdığı bildirilir. Hər at orta hesabla 75,000 funt-sterlinqə alınıb.

*Qeyd edək ki, II Elizabetin ölümündən sonra oğlu Çarlz ona məxsus atların bir hissəsini miras olaraq əldə edib.*

## Çində dünyanın ən böyük konteyner gəmisi inşa olunub



**Çinin "Ciansu Yancı Sinfu" gəmiqayırma zavodunda dünyanın ən böyük 2 konteyner gəmisi - "MSC Irina" və "MSC Loreto" adlı gəmilər inşa edilib.**

Azərtac şirkətin açıqlamasına istinadla xəbər verir ki, hər biri 24 min 346 konteyner (20 futluq ekvivalentində) tutumu olan gəmilərin uzunluğu 399,99 metr, eni 61,3 metrdir. Göyərtəsinin sahəsi 3,5 futbol stadionuna (24 min kvadratmetr) bərabər olan gəmilər sınaqları başa vurduqdan sonra gələn ilin fevralında sifarişçi şirkətə ("Mediterranean Shipping Company") təhvil veriləcək. Hazırda inşası davam edən digər 4 belə gəminin də gələn il sifarişçiyə çatdırılması nəzərdə tutulub.

*Qeyd edək ki, indiyədək dünyanın ən böyük konteyner gəmisi "Evergreen" nəqliyyat şirkətinə məxsus "Ever Alot" hesab olunurdu. Onun konteyner tutumu 24 min 4 ədəddir.*

## Evində ilan saxlayan aktrisa şikayət edildi



**Evində ilan saxlayan aktrisa Yasemin Allen nazirliyə şikayət edilib.**

**Olay xəbər verir ki, bu barədə sənətçi özü məlumat yayıb.**

**"İlanımı İngiltərədə bir nəfərə verməyə məcbur oldum. Burada qadağandır", - deyə, Yasemin bildirib.**

## 40 yaşını qeyd etməzdən əvvəl kamera önünə keçdi



**Amerikalı aktrisa Enn Heteuey bu dəfə Honq Konq "Vogue" jurnalının noyabr sayında yer alıb.**

**Axşam.az xəbər verir ki, aktrisa məşhur moda fotoqrafı Deniyel Ceksonun obyektivi qarşısına keçib. Onun stilist üzərində Dena Ciannini çalışıb.**

**Enn obrazlarında "Gucci", "Michael Kors", "Chanel", "Carolina Herrera", "Tom Ford", "Valentino" kimi markaların geyimlərindən, "Giorgio Armani" və "Bvlgari"nin aksessuarlardan istifadə edib.**

***Qeyd edək ki, noyabrın 12-si aktrisanın 40 yaşı tamam olacaq.***



# Ər-arvad 20 ildir balıq tuturlar

Qoca cütlük dənizdə həm rahatlıq tapırlar, həm də çörəklərini qazanırlar





**Ömürlərinin 40 ilini Trabzonda birlikdə keçirən Zəhra (64) və Engin (70) Kükü cütlüyü 20 ildir ki, "bismillah" deyərək balıq ovlayır və qayıqları ilə yelkən açır. Fırtınanın azalmadığı Qara dənizdə işləyən cütlük həyatın çətinliklərini də birlikdə yaşadıqlarını deyir.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Trabzonun Sürmene səmtindəki Yeniay limanında Zehra-Engin Kükü cütlüyü Qara dənizdə balıq tutaraq dolanışığını belə təmin edir.

Üç qızı olan cütlük 40 illik evliliklərində 20 ildir həm iş ortağı, həm də ömür-gün yoldaşı kimi həyatı bölüşürlər.

Zehra Kükü maddi sıxıntılar üzündən başladığı balıqçılığı çox sevdiyini deyib: "Üzüm bağını, bağçanı o qədər də sevmirəm, bu işi daha çox sevirəm. Həyat yoldaşımla yaxşı işləyirik. Dolanışığımızı qazanırıq. 40 ildir evliyik, 3 övladımız var. 20 yaşımdan balıq tutmağa başlayandan illər keçdi, həyat yoldaşımla dənizə gedirik, birlikdə tor çəkirik, tor atırıq.

Oğlumuz olmadığı üçün işləyirdik, bir-birimizə dayaq olurduq. Uşaqlarımızı bir az böyüyəndə dənizə getdik. İşimlə fəxr edirəm".

Dənizdə keçirdiyi günlərindən danışan Zehra Kükü "Burada başım dincəlir. Xüsusilə dənizə gedəndə rahatlıq tapıram. Bu iş çox çətindir. Bunu zövqlə etdiyimiz üçün çətinliyi unuduruq" deyib. Engin Kükü isə həyat yoldaşının 20 ildir ona köməklik etdiyini və dənizin çətinliyinə birlikdə dözdüklərini açıqlayıb: "Artıq qocaldıq. Bir gün biz də balıq tutmağı dayandıracağıq".

Dənizdə olmağın çox çətin olduğunu da ifadə edən Kükü, yaşadığı bir hadisəni bu sözlərlə ifadə etdi: "Bir dəfə



Ofdan gedərkən hava pis idi. Qayığın mühərriki dayanmaq üzrə idi, sükanı həyat yoldaşıma verdim, mühərriki öz üzərimə götürdüm. Dostlarımız bizi axtarmağa çıxdılar. Sonra sağ qaldıq. O vaxtdan sonra dedim ki, canımı qurtarsam, bir daha bu işlə məşğul olmaram. Amma çətinliklər zamanla unudulur".

**Turan**



# Ulduz futbolçu tarixə düşdü

Maradonanın ən böyük divar rəsmi çəkildi

**Argentinanın paytaxtı Buenos-Ayresdə bir binanın divarına futbol əfsanəsi Dieqo Armando Maradonanın 62-ci ad günündə şəkli çəkilib. Məşhur muralist Martin Ron Maradonanın ad günündə İtaliya-90 Dünya Kubokundan əfsanəvi şəklini 45 metr hündürlüyündəki binanın divarına həkk edib.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, divar rəssamı Martin Ron şəhərin mərkəzində 1060 metrlik divarda 1990-cı ildə Almaniyaya qarşı keçirilən Dünya Kubokunun finalında komandasını fəal olmağa çağıran Maradonanın şəklini təsvir edib.

41 yaşlı Ron, "Biz artıq bilirik ki, o, dünyanın ən yaxşı oyunçusu idi, amma şəxsiyyət olaraq kim idi? O, döyüşçü idi, çətinliklərə dözürdü, hətta zədə alırdı, başına gələn hər şeylə üzləşirdi".

Qeyd edək ki, Maradona 25 noyabr 2020-ci ildə 60 yaşında ürək tutmasından vəfat edib. Bundan sonra



milyonlarla insan onun yasını tutub. Ron və yeddi rəssamdan ibarət qrup tərəfindən hazırlanmış divar rəsmi tamamlandıqda, 800 litr boyadan istifadə ediləcək. Ron, 45 metr hündürlüyündəki təsvirin Maradonanın indiyə qədərki ən böyük divar rəsmi olduğunu söylədi.

**Turan**

## Şahzadə Harri keçmiş sevgililərindən kömək istəyib



**Şahzadə Harrinin keçmiş sevgililərinə işi düşüb.**

Oxu.az xəbər verir ki, 2022-ci ilin yayında Sasseks hersoqu xatirə kitabı üçün daha çox məlumat toplamaq məqsədilə xanımlardan yazıçısı Cey Ar Meringerlə danışmağı xahiş edib. Şahzadənin keçmiş rəfiqələri illərlə jurnalistlər və bioqraflarla ünsiyyətə ciddi qadağa qoyulduqdan sonra belə bir xahişdən təəccübləniblər.

*Qeyd edək ki, "Ehtiyat" adlanan kitab 2023-cü il yanvarın 10-da nəşr olunacaq.*

## Yeməkdə, suda deyil

105 yaşlı qadın uzun ömürlülük sirrini açdı



**105 yaşlı qadın Kanadalı Coys Cey uzun ömrün yeni sirrini açıb.**

"Medicina" xəbər verir ki, qadın vaxtının çoxunu bitkilərə qulluq etməklə pazl yığmaqda keçirir.

Uzun ömrün sirri həmişə hərəki aktiv olmaq və həyata marağın sönməməsidir. Mütləq bir maraq olmalıdır. "Mən həmişə kiçik də olsa məqsədlər qoyub ona doğru aktiv getmişəm. Mənim uzun ömrümün sirri hansısa yeməkdə, suda deyil".